# QARABAĞ AZƏRBAYCANDIR!

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 208 (6172) 21 noyabr 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

# Yeni Azərbaycan Partiyası: 28 İLLİK ZƏFƏR SİMVOLU!

*Hakim partiya dövlətin inkişaf mərhələsində əvəzsiz töhfələrini verməkdə davam edir*



Bax 6

## Mehriban Əliyeva Ağdamın işğaldan azad edilməsi münasibətilə xalqımızı təbrik edib

Bax 5



*Birinci vitse-prezident Mehriban Əliyevanın rəsmi "İnstagram" səhifəsində Ağdam rayonunun işğaldan azad edilməsi münasibətilə paylaşım edilib. SİA-nın məlumatına görə, paylaşımda deyilir:*

## "YAP Azərbaycanın şərəfli tarixinin yaşıdı, möhtəşəm uğurlarımızın ilham mənbəyidir"

Bax 5



Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP Sədrinin müavini - icra katibi Əli Əhmədov Yeni Azərbaycan Partiyasının yaranmasının 28-ci ildönümü münasibətilə özünün rəsmi facebook səhifəsində paylaşım etmişdir. SİA-nın verdiyi məlumata görə, paylaşımda toxunduğu mövzunun aktuallığını nəzərə alaraq, onu oxucularımızın ...

## Erməni general: "Müharibənin 5-ci günündə 1500 fərarimiz var idi"



"Silahlı qüvvələrin informasiya mərkəzi olur və bu mərkəzin öhdəliyinə düşən vəzifələrdən biri də düşməni çaşqınlığa salmaqdan ibarətdir.

Bax 7

## Rusiya eksperti: "Paşinyanın siyasəti Ermənistanı çökdürdü"

Bax 11



***"Erməni hərbi komandanlığı hərbi əməliyyatların Azərbaycanın şərtləri ilə təcili olaraq başa çatdırılmalı olduğunu izah etdi. Bu, həmişə tərəflərdən biri məğlub olduqda və digəri qəti bir hərbi qələbə qazandıqda olur". Milli Müdafiə jurnalının baş redaktoru,...***

## Vladimir Putin Dağlıq Qarabağın Azərbaycan ərazisi olduğunu təsdiq etdi

Azərbaycan ictimaiyyəti tərəfindən birmənalı qarşılanmayan və bəzi təhdid ritorikası hiss olunan Rusiya prezidenti Vladimir Putinin Azərbaycan-Ermənistan münaqişəsinin həlli ilə bağlı imzalanmış sənəd barədə Rusiya...

Bax 11

## Hayların növbəti məğlubiyyət damğası



Bir ölkənin vətəndaşları, özünü xalq adlandıran bir qaraçı tayfası, ermənilər məğlubiyyətlərini həzm edə bilmirlər...

Bax 14

### "Müharibə dönəmində Azərbaycan mətbuatı vahid cəbhədə vuruşdu"



Bax 7

### Ordumuz Ağdama Azərbaycan Bayrağını sancdı!



### Orxan Səfərov Avropa çempionudur!



Bax 16

# "Biz tarix yazırıq, yeni tarix. Xalqımızın, ölkəmizin yeni şanlı tarixini yazırıq"

## *Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciət edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciət edib. AZƏRTAC müraciəti təqdim edir.***



*"Ağdamın işğaldan azad edilməsi şanlı hərbi Qələbə nəticəsində mümkün olmuşdur. Əgər Azərbaycan Ermənistanı döyüş meydanında məğlub etməsəydi, Ermənistan öz xoşu ilə bizim torpaqlarımızdan çıxmayacaqdı"*

Prezident İlham Əliyevin xalqa müraciəti

-Əziz həmvətənlər.

Mən sizi Ağdam rayonunun işğaldan azad olunması münasibətilə ürəkdən təbrik edirəm. Bütün ağdamlıları ürəkdən təbrik edirəm. Əziz ağdamlılar, siz artıq köçkün deyilsiniz. Siz doğma dədə-baba torpağınıza qayıdacaqsınız.

Ağdam rayonunun işğaldan azad olunması noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın nəticəsidir. Mən dəfələrlə demişdim ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli həm siyasi, həm hərbi yollarla mümkündür. Biz uzun illər ərzində bu məsələni siyasi yollarla həll etməyə çalışırdıq. Ancaq bütün dünya gördü ki, məhz Ermənistanın mövqeyinə görə bu məsələ öz həllini tapmamışdır və məsələnin hərbi yollarla həll edilməsi bizim qanuni hüququmuz idi. Bu hüququ beynəlxalq norma və prinsiplər tanıyır. Bu hüquq bizə BMT Nizamnaməsi tərəfindən verilibdir. Hər bir ölkə özünü müdafiə edə bilər və biz də özümüzü müdafiə etmişik.

Ağdam rayonunun işğaldan azad olunması tarixi hadisədir. Deyə bilərəm ki, işğal edilmiş rayonların arasında əhalinin sayına görə Ağdam ən böyük rayondur. İşğaldan əvvəl Ağdam rayonunda 143 min insan yaşayırdı. Hazırda Ağdam rayon sakinlərinin sayı 204 mindir. Rayonun 73 faizi işğal edilmişdi və qalan ərazilərdə - bizim nəzarətimizdə olan ərazilərdə biz son illər ərzində böyük quruculuq, abadlıq işləri aparmışıq. Biz Quzanlı kəndinə qəsəbə statusu verdik və Quzanlını faktiki olaraq Ağdam rayonunun mərkəzinə çevirdik. Mənim göstərişimlə Quzanlıda sosial obyektlər, infrastruktur və sənaye müəssisələri yaradılmışdır. İnsanlar üçün iş yerləri yaradıldı. Quzanlı təbii qazla təchiz edildi, orada bütün digər infrastruktur layihələri icra olundu, böyük Olimpiya İdman Kompleksi, xəstəxana, məktəblər, Muğam Mərkəzi inşa edilmişdir. Bütün bu obyektlərin açılışlarında mən şəxsən iştirak etmişəm. Onu da bildirməliyəm ki, son illər ərzində mənim göstərişimlə Ağdam rayonunun bizim nəzarətimizdə olan hissəsində 18 köçkün şəhərciyi salınmışdır və biz Ağdam rayonuna 93 min köçkünü yerləşdirə bildik. Görülmüş işlər və böyük investisiyalar hesabına bu gün Ağdam rayonunun əhalisinin 45 faizi Ağdam rayonunun ərazisində yaşayır.

İndi isə Ağdam üçün yeni dövr başlayır. Bizim böyük planlarımız var. İşğal edilmiş torpaqlarda hər şey dağıdılıb. Mənim Füzuli və Cəbrayıla səfərlərim mətbuat tərəfindən işıqlandırılıb və hər kəs, bütün dünya gördü ki, hansı vəhşi düşmənlə biz üz-üzə qalmışdıq. Nə Cəbrayılda, nə Füzulidə bir dənə də salamat bina qalmayıb, yalnız hərbi hissə və hərbi hissəyə aid olan bəzi tikililər. Qalan bütün infrastruktur, bütün binalar, evlər, tarixi abidələr, dini abidələrimiz vəhşi düşmən tərəfindən dağıdılıb.

Mən orada o dağıntılar arasında Azərbaycan xalqına müraciət edərək demişdim ki, biz bu torpaqları, bu şəhərləri, bu kəndləri bərpa edəcəyik. Ermənilər hesab edirdilər ki, bu dağıntılardan sonra heç vaxt Azərbaycan əhalisi bu torpaqlara qayıtmayacaq. Səhv etdilər. Onlar bilmirlər ki, Azərbaycan xalqının ürəyində - bizim xalqımızın qəlbində doğma torpaqlar əbədi yaşayır və yaşayacaq. Bizim bütün köçkünlərimiz bu illər ərzində bir arzu ilə yaşayıblar ki, öz doğma torpaqlarına qayıtsınlar, dövlətin dəstəyi və köməyi ilə orada özləri üçün yeni həyat qursunlar.

Biz Ağdam şəhərini də bərpa edəcəyik. Əlbəttə ki, bunun üçün biz bütün işləri əsaslı şəkildə etməliyik. Baş plan hazırlanacaq, mütəxəssislər cəlb olunacaq, infrastruktur layihələri planlı şəkildə icra ediləcək, inzibati binalar, sosial obyektlər, yollar və digər lazım olan işlər görüləcək. Vətəndaşlara oraya qayıtmaq üçün dövlət tərəfindən kömək göstəriləcək. Ona görə Ağdam rayonunun bərpası bizim gələcək planlarımızda xüsusi yer tutacaq. Çünki həm ərazi baxımından böyük rayondur, eyni zamanda, dediyim kimi, əhali baxımından ən böyük rayondur.

Əslində, bizim bərpa işlərimiz artıq başlanıb. Füzulidə olarkən Füzulidən Şuşaya yeni yolun çəkilişi ilə bağlı bütün müvafiq göstərişlər verilib, Prezidentin ehtiyat fondundan vəsait ayrılıb, ilkin olaraq 50 milyon manat. Ancaq bu vəsait kifayət etməyəcək. Gələn il əlavə vəsait ayrılacaq. Mənim göstərişimlə Əhmədbəyli-Alxanlı-Füzuli-Şuşa yolu bir neçə hissəyə bölünüb. Göstəriş vermişəm, bir neçə şirkət cəlb edilsin ki, biz vaxt itirmədən və qısa müddət ərzində bu yolu çəkək. Çünki Azərbaycan vətəndaşları bilirlər ki, əvvəllər Şuşaya gedən yol Ağdam-Xankəndi yolu idi, indi isə hələlik bu yoldan istifadə etmək mümkün deyil. Noyabrın 10-da imzalanmış üçtərəfli bəyanatda göstərilir ki, bütün kommunikasiyalar açılacaq, o cümlədən hesab edirəm ki, Ağdam-Xankəndi-Şuşa avtomobil yolu da müəyyən müddətdən sonra açılacaqdır. Hesab edirəm ki, kommunikasiyaların açılması, eyni zamanda, Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın əsas hissəsini birləşdirən yollar və kommunikasiyalar gələcəkdə bölgədə uzunmüddətli sülhə də öz töhfəsini verəcəkdir.

Bu işlər planlı şəkildə öz həllini tapacaq. Biz artıq birinci böyük layihəyə start verdik. Eyni qaydada ilə biz Ağdam şəhərini və onun bütün infrastrukturunu bərpa etmək üçün ardıcıl addımlar atacağıq. Ağdamlılar və işğaldan azad edilmiş bütün başqa rayonların sakinləri əmin ola bilərlər ki, Azərbaycan dövləti hər zaman onların yanında olacaqdır.

Ağdamın işğaldan azad edilməsi şanlı hərbi Qələbə nəticəsində mümkün olmuşdur. Əgər Azərbaycan Ermənistanı döyüş meydanında məğlub etməsəydi, Ermənistan öz xoşu ilə bizim torpaqlarımızdan çıxmayacaqdı. Bunu deməyə əsas verən bir çox amillər var. İlk növbədə, o bölgələrdə - işğal edilmiş torpaqlarda qurulmuş istehkamlar, oraya böyük vəsait xərclənib. O istehkamlar elə qurulub ki, Azərbaycan Ordusu oradan keçə bilməsin. Amma yenə də səhv etdilər. Bizim gücümüzü düzgün hesablaya bilmədilər. Bilmirdilər ki, bu gün Azərbaycan Ordusu, Azərbaycan vətəndaşı nəyə qadirdir. Bilmirdilər ki, bizi o Qələbəyə aparan həm gücümüzdür, texniki təchizatımızdır, həm də mənəvi ruhumuzdur. Bilmirdilər ki, Azərbaycan xalqı bütün bu illər ərzində bir arzu ilə yaşayır ki, öz dədə-baba torpağına qayıtsın. Bütün bu amillər və digər amillər bu Qələbəni şərtləndirdi.

Ona görə onlar bu istehkamları qurarkən və eyni zamanda, digər addımlar atarkən bir məqsədi güdürdülər ki, bu işğalı əbədi etsinlər. Əks-təqdirdə, onlar bizim tarixi şəhərlərimizin, kəndlərimizin adlarını dəyişdirməyəcəkdilər. Ağdama bir eybəcər ad veriblər, Füzuliyə başqa bir eybəcər ad veriblər. Yeni xəritələr tərtib ediblər və bu xəritələrdə qondarma "Dağlıq Qarabağ respublikası" keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətini yox, işğal edilmiş digər bütün torpaqları da əhatə edirdi və bunu onlar beynəlxalq ictimaiyyətə təqdim edirdilər.

Mən bu məsələ ilə məşğul olan vasitəçilərə dəfələrlə demişdim ki, siz buna diqqət yetirin. Siz indi bu məsələnin sülh yolu ilə həll olunmasından danışırsınız. Amma biz bunun tam əksini görürük. Görürük ki, Azərbaycan irsi bu torpaqlarda silinir, Azərbaycan abidələri, tarixi abidələr erməniləşdirilir, Azərbaycan məscidləri dağıdılır, bizim bütün tarixi-mədəni irsimiz silinir, yeni xəritələr tərtib edilir. Ermənistan məktəbləri üçün hazırlanan dərsliklərdə qondarma "Dağlıq Qarabağ respublikası"nın xəritələri dərc edilərkən orada işğal edilmiş bütün torpaqlar bu qondarma quruma aid edilir. Ermənistan xarici dillərdə nəşr etdiyi kitablarda, bukletlərdə qondarma qurumu təqdim edərkən işğal olunmuş bütün torpaqlar əhatə edilir. Onlar qanunsuz yollarla beynəlxalq sərgilərdə iştirak edərkən də eyni hərəkətləri edirlər.

**Ardı Səh. 3**

# "Biz tarix yazırıq, yeni tarix. Xalqımızın, ölkəmizin yeni şanlı tarixini yazırıq"

## *Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciət edib*

**Əvvəli-Səh-2**



*"Ermənistanda gündə hansısa müxalifət lideri həbs olunur, özü də tamamilə əsassız. Bir Qərb ölkəsi buna reaksiya veribmi? Yox. Bunu qınayıbmı? Yox. Əsas müxalifət partiyalarının rəhbərləri həbs olunub. Bir nəfər də söz demir. Avropa Şurası haradasan? Azərbaycana xor gözlə baxan, bizi qaralamağa çalışan, haradasan Avropa Şurası, niyə susursan?"*

Yaxşı, bəs, necə olacaq, siz deyirsiniz ki, bu, sülh yolu ilə həll ediləcək.

İndi nə oldu bu xəritələr? İndi bu xəritələr cəhənnəmə getdi, bu xəritələr artıq yoxdur. İndi Kəlbəcər rayonunu boşaldan işğalçılar bütün evləri, binaları, məktəbləri dağıdırlar, sökürlər, öz vəhşiliklərini göstərirlər. Bütün beynəlxalq aparıcı media qurumları bunu lentə alır və dünyaya yayır, biabır edir onları. Onlar özləri özlərini biabır edirlər, qorxaqcasına qaçıblar bizim qabağımızdan. Bizim qabağımızda duruş gətirə bilmədilər. Özlərini yenilməz ordu adlandıranlar, döyüşkən xalq adlandıranlar, bəs nə oldu sizin döyüşkən ordunuz? Haradadır bu? Pərən-pərən oldu, vurduq, dağıtdıq, məhv etdik. Yoxdur Ermənistan ordusu, biz onu məhv etmişik. Bizim döyüş meydanındakı qələbəmiz siyasi qələbəmizi də şərtləndirdi. Ağdam rayonu bizə bir güllə atmadan, bir nəfər də şəhid vermədən qayıdır. Bu, böyük siyasi uğurumuzdur. Amma əgər o hərbi qələbə olmasaydı, bu da mümkün olmazdı.

Ağdamlılar Birinci Qarabağ müharibəsində qəhrəmancasına vuruşmuşlar, çoxlu şəhidlər vermişlər. İkinci Qarabağ müharibəsində - Vətən müharibəsində də cəsarətlə vuruşmuşlar, şəhidlər vermişlər. Mən fürsətdən istifadə edərək bu Qələbəni bizə bəxş edən bütün şəhidlərimizi yad etmək istəyirəm, Allah onlara rəhmət eləsin, Allah onların yaxınlarına səbir versin. Şəhidlərimizin valideynlərinə, yaxınlarına bir daha müraciət edərək onlara öz təşəkkürümü bildirirəm ki, belə gözəl, igid övladlar yetişdiriblər dövlətimiz üçün, xalqımız üçün. Yaralı əsgərlərimizə, zabitlərimizə tezliklə normal həyata qayıtmağı arzu edirəm. Allah onlara şəfa versin. Onların reabilitasiyası ilə bağlı artıq tədbirlər planı hazırlanır, müvafiq göstərişlər verilib. Onlar daim diqqət mərkəzində olacaqlar.

Beləliklə, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi artıq arxada qalır və bunu beynəlxalq ekspertlər də qeyd edirlər. Azərbaycan döyüş meydanında parlaq Qələbə qazanaraq siyasi meydanda da istədiyinə nail ola bilmişdir. Bu torpaqların abadlaşdırılması ilə bağlı tədbirlər görüləcək. İlk növbədə, minalardan təmizləmə işləri aparılmalıdır. Bu da çox vaxt aparan bir məsələdir. Çünki mənfur düşmən böyük əraziləri minalaşdırıb. Ondan sonra infrastruktur layihələri ilə bağlı işlər aparılmalıdır. Artıq göstəriş verilib, mövcud infrastruktur təhlil edilir. Bizim indi peyk imkanlarımız və digər imkanlar var. Mən Füzuli və Cəbrayıl rayonlarına səfər edərkən artıq qısa müddət ərzində salınmış yeni yoldan istifadə etdim. O müvəqqəti yoldur, amma hər halda, bu yoldan istifadə etmək olar. Yəni, bütün bu işləri biz görəcəyik və bizim böyük qayıdış planımız hazırda tərtib edilir.

Müharibəyə gəldikdə, bir daha deməliyəm ki, Azərbaycan əsgəri, zabiti qəhrəmanlıq göstərib. Lakin Ermənistan ordusundan fərarilik edənlərin sayı 10 mini ötüb, özü də bunu onlar özləri deyirlər, onların rəsmi şəxsləri deyirlər - 10 mindən çox fərari olub. İndi bu, bir daha göstərir ki, hansı ordu yenilməz ordudur? Hansı ordu qəhrəman ordudur? Onların ordusu, əslində, o quldur dəstəsi yalnız mülki, əliyalın insanlara qarşı müharibə apara bilərdi. Xocalı qatilləri, kəndlərimizi yandıran, insanlarımızı, mülki şəxsləri öldürən digər qatillər hərbçi sayıla bilməz. Onların ordusu oğrulardan ibarətdir. Son iki il ərzində nə qədər oğru erməni generalı həbs edildi?! Tuşonka satan, əsgərin payını satan generallar oğrudurlar. Onların "qəhrəmanları" qorxaqdırlar, onların rəhbərləri cinayətkardırlar. Ermənistan rəhbərliyi artıq özü bunu deyir ki, 20 il ərzində - 1998-ci ildən 2018-ci ilə qədər bu ölkəyə quldurlar, oğrular, qorxaqlar, fərarilər rəhbərlik edib. Son iki il yarım ərzində isə kim rəhbərlik edib? Artıq bütün dünya görür və bu ölkəyə hansı ad vermək olar? Ancaq bir ad - uğursuz ölkə. Bu uğursuzluğun səbəbi nədir? İşğal! Mən bunu dəfələrlə demişəm. Hər kəs baxa bilər mənim çıxışlarıma, müsahibələrimə. Demişəm ki, bu işğal Ermənistanı uçuruma aparacaq. Demişəm ki, biz heç vaxt bu işğalla barışmayacağıq, gec-tez torpağımızı qaytaracağıq. Ancaq Ermənistan o tarixi şansı itirəcək. Ermənistan bu 30 ilə yaxın müddətdə müstəqil ölkə ola bilmədi, bu gün də müstəqil deyil. Ermənistan faktiki olaraq müstəmləkədir. Bu idimi erməni xalqının arzuları? Bu idimi onların gözləntiləri? Onlar nə üçün müstəqil ölkə ola bilmədilər? İşğala görə. İşğaldan nə qazandılar? Heç nə. Biabır oldular siyasi müstəvidə, bütün beynəlxalq təşkilatlarda biz fəal iş apararaq onları biabır etdik və bizə lazım olan, beynəlxalq hüququ tələb edən qətnamələr, qərarlar qəbul olundu. Onlar döyüş meydanında məğlub olaraq bütün dünya qarşısında rəzil oldular. Bundan sonra bu damğa ilə yaşayacaqlar, "məğlub edilmiş ölkə" damğası ilə yaşayacaqlar. Onlar Bakıda, Gəncədə, bizim başqa şəhər, rayonlarımızda yaşayırdılar. Onlara söz deyən var idi? Yox. Onlar bundan məhrum oldular. Bizim xalqımızı oradan qovaraq, etnik təmizləmə siyasəti apararaq buradan da getməli oldular. Nə qazandılar? Heç nə. İndi isə bax, bu rəzil durumda bir-birini didirlər, olan-qalan dövlətçiliyi də məhv edirlər. Mən o vaxt demişdim ki, onlar ağıllarını başlarına yığsınlar, bu işğala son qoysunlar. Bu işğal davam etdikcə Ermənistan inkişaf edə bilməz və bilmədi. Siyasi cəhətdən asılı, hərbi cəhətdən asılı, iqtisadi cəhətdən natamam. İdeologiya baxımından çox ziyanlı bir ideoloji əsaslar formalaşdırıblar. Bunların ideoloji əsasları yalan üzərində qurulub, tarixi saxtakarlıq üzərində qurulub və keçmiş üzərində qurulub. Saxtalaşdırılmış keçmişdən əl çəkə bilməyən ölkə necə qabağa gedə bilər? Baxın, dünyada nə qədər müharibələr olub. Elə bu son 100 ili, 200 ili götürün. Nə qədər insanlar həlak olub müharibələrdə. Kim bu ədavəti, kim bu kini-küdurəti yaşadıb öz ürəyində illərlə? Kim öz uşaqlarını nifrət hissi ilə böyüdüb? Budur, bunun gələcəyi, budur, bunun reallıqları. Sovet İttifaqı Almaniya ilə müharibə zamanı on milyonlarla insan itirib, 10 il, 20 il keçəndən sonra artıq barışıq olub. İndi Rusiya ilə Almaniya arasındakı münasibətlər normal inkişaf edir. Avropa ölkələri özləri. Fransa İtaliya ilə nə qədər müharibə aparıb. Almaniya ilə Fransa nə qədər müharibə aparıb. Hansı ölkənin xalqı bu nifrəti öz ürəyində yaşadır, bunu, necə deyərlər, alovlandırır. Bax, budur, Ermənistanı bu günə salan. Onlar bütün öz bəlalarında özləri günahkardır. Digər tərəfdən, qonşularla normal münasibət qura bilməyən ölkə necə inkişaf edə bilər? Türkiyəyə qarşı ərazi iddiası. Heç ağlı yoxdur. Türkiyə kimi böyük bir ölkəyə qarşı ərazi iddiası irəli sürmək özünəqəsd deməkdir. Azərbaycana qarşı ərazi iddiası. Onlar bu iddianı müəyyən müddət ərzində reallaşdıra bilmişdilər, bizim torpaqlarımızı işğal etmişdilər, qonşu xalqı didərgin salmışdılar. Hesab edirdilər ki, onlar haqlıdır və saxta tarix yaradırdılar. İndi onlar bütün başqa ölkələrdən yardım gözləyirlər. Elə bil ki, bütün dünya bunlara borcludur. Müstəqil ölkəsən, müstəqil ölkə kimi yaşa. Müstəqil ölkə kimi yaşaya bilmirsən, get başqa ölkənin tərkibinə gir. Endir o bayrağı dirəkdən, bük, qoy cibinə, get başqa ölkənin tərkibində yaşa. Onlar özləri öz bəlalarının səbəbkarlarıdır.

*Ardı Səh. 4*

# “Biz tarix yazırıq, yeni tarix. Xalqımızın, ölkəmizin yeni şanlı tarixini yazırıq”

## *Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciət edib*

**Əvvəli-Səh-3**

Onlara vurulmuş bu zərbə, onların başına gələn bu hadisələr bəlkə də onları ayıltdı ki, onlar normal ölkə kimi bundan sonra yaşaya bilsinlər, əgər düzgün seçim etsələr, əgər qonşularla münasibətləri normallaşdırsalar.

Mən nə üçün bu barədə danışıram?! Çünki biz bu bölgədə yaşayırıq və istər-istəməz bu qonşuluq davam edəcək, istəsək də, istəməsək də. Mən ölkə Prezidenti və Ali Baş Komandan kimi maraqlıyam ki, bölgəmizdə, Cənubi Qafqazda ədavətə artıq son qoyulsun və normal, işgüzar münasibətlər qurulsun. Hər halda, biz bunu istəyirik. Mən müharibə dövründə demişəm, bir daha deyirəm, bizim erməni xalqı ilə heç bir problemimiz yoxdur. Biz erməni xalqına qarşı enik təmizləmə aparmamışıq, necə ki, onlar bizə qarşı aparıblar. Biz onların tarixi abidələrini dağıtmamışıq, biz onları qoruyuruq və bildiyiniz kimi, bu məsələ ilə bağlı önəmli addımlar atmışıq.

Biz onların şəhərlərini dağıtmamışıq, halbuki dağıda bilərdik. Şuşanı götürəndən sonra Xankəndini dağıtmaq nə böyük problem idi. Bir gün ərzində dağıda bilərdik. Biz etdikmi bunu? Yox. Amma onlar nə günə saldılar bizim şəhərlərimizi. Ona görə bizim erməni xalqı ilə problemimiz yoxdur. Bir daha demək istəyirəm ki, vahid Azərbaycan dövlətində yaşayan bütün xalqlar bərabər hüquqlara malikdir, o cümlədən erməni xalqı. Azərbaycanda minlərlə erməni yaşayır. Onlara bir söz deyən var ölkəmizdə? Yox. Azərbaycan vətəndaşları kimi normal yaşayırlar. Əminəm, bu gün Dağlıq Qarabağda yaşayan ermənilər də gün gələcək başa düşəcəklər ki, onlar üçün yeganə yol Azərbaycan xalqı ilə yanbayan yaşamaq, qonşuluq şəraitində yaşamaq və bütün bu çirkin əməllərdən əl çəkməkdir.

O ki qaldı, bu gün Ermənistan tərəfindən növbəti bir uydurmanın ortalığa atılmasına, mən ona da aydınlıq gətirmək istəyirəm. İndi belə bir rəqəm səsləndirirlər ki, guya, Dağlıq Qarabağdan 90 min erməni qaçıb, qaçqın olub. Yalandır. Dağlıq Qarabağ ərazisində və işğal edilmiş bizim torpaqlarda İkinci Qarabağ müharibəsinə qədər maksimum 60-65 min insan yaşayıb. Biz bunu haradan öyrənmişik? Bizdə operativ məlumat var. Bizim o bölgədə bir çox informasiya mənbələrimiz var və bizim uğurlarımızın səbəblərindən biri də məhz bundadır. Biz tam dəqiqliklə bilirdik və bilirik indi orada nə baş verir, onların xunta başçısı harada gizlənir. Yəqin o da bilir ki, biz bilirdik. Ona görə burnunu çıxara bilmirdi küçəyə, bunkerdə oturmurdu. Bizim məlumatımız var, mənbələrimiz var, peyk görüntüləri var. Ona görə mən tam əminliklə deyirəm ki, Dağlıq Qarabağda, o cümlədən işğal edilmiş torpaqlarda maksimum 65 min insan yaşayıb. Yaxşı, belə olan halda 90 min qaçqın haradan gəldi? Yenə saxtakarlıq, yenə yalan. İndi yenə məliyəməliyə, sürünə-sürənə onun-bunun ətəyindən yapışacaq ki, mənə kömək edin. “Mənə kömək edin” onların ideologiyasının əsas prinsipidir. Bu ideologiya ilə hansı xalq inkişaf edə bilər? Ancaq kimdənsə, nə isə gözləmək, ummaq və ondan sonra küsmək, incimək, tələb irəli sürmək kimə xeyir gətirib bu günə qədər?

Biz qaçqınların sayı ilə bağlı bu yalanları ifşa edəcəyik və əgər bu qaçqınlar olubsa, o, bizim günahımız deyil. Çünki biz mülki əhaliyə qarşı vuruşmamışıq. Onlar mülki əhaliyə qarşı vuruşublar. Bizim mülki vətəndaşlar arasında 94 şəhidimiz var, 400-dən çox yaralı mülki şəxs var, 3000-dən çox evimiz dağıdılıb. Onlarda mülki şəxslər arasında itkilər qat-qat aşağıdır. Amma onlar bizim mülki əhalini məqsədyönlü şəkildə vururdular. Gəncəni ballistik raketlərlə vurmuşdular. Kasetli bombalarla Bərdəni vurmuşdular, fosforlu bombalarla. Bu, hərbi cinayətdir. Tərtər şəhəri demək olar ki, dağıdılıb. Ən çox mərmi düşən Tərtər idi. Hər səhər mənə məlumat verilirdi nə qədər mərmi düşür. Gün var idi ki, bir şəhərə, özü də balaca şəhərə iki min mərmi düşürdü. Bu, erməni vəhşiliyi deyilmi? Xocalı soyqırımının təkrarı deyilmi? Görün biz kimlərlə üz-üzə idik və biz kimi məğlub etmişik? Yenə də deyirəm, bu, təkcə ərazi bütövlüyümüzün bərpası deyil, erməni faşizminin belinin qırılmasıdır. Biz bölgəni erməni faşizmindən xilas etdik, dünyanı erməni faşizmindən xilas etdik. Amma baş qaldıra bilər. Ancaq biz imkan verməyəcəyik. Hər kəs bunu bilsin. Özümüzü müdafiə etmək üçün istənilən addımı atacağıq. Öz vətəndaşlarımızı müdafiə etmək üçün istənilən addımı atacağıq və heç kim bizi saxlaya bilməz. Bu 44 gün ərzində bütün dünya gördü. Heç kim bizim qabağımızda dura bilməz, bizə şərt qoya bilməz. Bizə müharibənin ilk günlərində şərt qoymaq istəyən, hədələmək istəyən, şərləmək istəyən ölkələrin, bəzi Qərb ölkələrinin nümayəndələri sərt cavabımızı aldılar. Gördülər, biz o ölkələrdən deyilik ki, kiminsə qabağında baş əyək və mən də o liderlərdən deyiləm ki, kimdənsə nə isə qəbul edim, hansısa sözü. Artıqlaması ilə cavab vermişəm və verəcəyəm lazım gəldikdə. Ona görə əgər erməni faşizmi bir də baş qaldırsa, əgər bizə qarşı hər hansı bir təxribat törədilərsə, 10 qatını alacaqlar, 10 qatını və heç kim bizi durdura bilməz.

Hazırda Qarabağ bölgəsində mövcud olan coğrafi vəziyyət, əlbəttə ki, bizim imkanlarımızı qatqat artırıb. Sadəcə olaraq, xəritəyə baxmaq kifayətdir, hər kəs görsün ki, kimin əlində hansı imkanlar var. Ona görə mən bir daha sözümü demək istəyirəm. İndi Ermənistanda daxili böhran hökm sürür. Bu da təbiidir. Çünki hərbi məğlubiyyət, özü də belə biabırçı məğlubiyyət, əlbəttə ki, istənilən ölkədə təlatümlərə gətirib çıxara bilər. Ona görə yəqin ki, indi bu böhran da keçəndən sonra əgər Ermənistanda sağlam qüvvələr hakimiyyətə gələrsə, biz o sağlam qüvvələrlə normal münasibətlər qurmağa hazırıq. Ancaq cəlladlarla, Azərbaycan xalqının qanını tökənlərlə bizim heç bir əlaqəmiz ola bilməz. Bunu hər kəs bilsin! Bundan sonra təbii ki, bu bölgədə Azərbaycanın imkanları genişlənəcək, o cümlədən təsir imkanları. Amma bizim imkanlarımız yalnız əməkdaşlığa hesablanıb. Bu günə qədər yaşadığımız bu bölgədə gördüyümüz bütün işlər əməkdaşlığa təkan verib. Bütün layihələrimiz - energetika, nəqliyyat, humanitar layihələrimiz əməkdaşlığı dərinləşdirir. Biz bir dənə də səhv addım atmamışıq, misal üçün qonşumuza hansısa problem yarada biləcək bir dənə də addım atmamışıq. Ona görə qonşu ölkələrlə münasibətlərimiz normaldır, yaxşıdır. Deyə bilərəm ki, bir çoxları üçün nümunə ola bilər. Ermənistanın qonşuları ilə münasibətləri necədir? Azərbaycanla belə işğal, Türkiyəyə qarşı ərazi iddiası. Rusiyaya indi, necə deyərlər, narazılıq ifadə edir. Mən bunu bilirəm ki, nə üçün İran üzərindən silahları gətirə bilməyiblər. Ona görə ki, İran bizim dost, qardaş ölkəmizdir. Ona görə ki, bizim xahişimizi nəzərə alaraq öz hava məkanını bağlayıb. Ona görə ki, istəməyib, onlar gəlib azərbaycanlıları öldürsünlər. Gürcüstana da eyni iddia irəli sürür. Çünki Gürcüstan da müharibə dövründə öz hava sahəsini bağlayıb və quru yollarla silahların daşınmasına imkan verməyib. O da istəməyib ki, vəhşi düşmən mülki vətəndaşlarımızı öldürsün. Onlar Rusiyaya qarşı iddia qaldırırlar ki, Rusiya bunlara kömək etməyib. Rusiya Prezidenti öz müsahibəsində kifayət qədər açıq və tam dəqiq məlumat verdi, öz mövqeyini bildirdi. Azərbaycan beynəlxalq hüquq tərəfindən tanınmış öz ərazisində müharibə aparırdı. Ona görə burada hansısa bir müttəfiqlik münasibətlərinin qarışmasına imkan yaradılmasından söhbət gedə bilməz. Ancaq bunlar hamıya irad tuturlar, hamıdan narazıdırlar. Belə təfəkkürlə necə yaşamaq olar?

**“Özlərini yenilməz ordu adlandıranlar, döyüşkən xalq adlandıranlar, bəs nə oldu sizin döyüşkən ordunuz? Haradadır bu? Pərən-pərən oldu, vurduq, dağıtdıq, məhv etdik. Yoxdur Ermənistan ordusu, biz onu məhv etmişik”**

Biz isə bundan sonra inkişaf yolumuzla daha sürətlə gedəcəyik. Biz döyüş meydanında istədiyimizə nail olduq. Əsgər və zabitlərimiz öz gücünü göstərdi. Biz siyasi müstəvidə gücümüzü göstərdik və üçtərəfli Bəyanat bizim maraqlarımıza tam cavab verir. Məhz buna görə bu Bəyanat dünyanın gözü qarşısında imzalandı, Rusiya Prezidenti və mən. Amma Ermənistanın baş naziri bunu harada imzalayıb onu hələ ki, yəqin etmək mümkün deyil. Amma o qədər də önəmli deyil. Hansısa anbarda, ya qapalı bir yerdə, ya yaşadığı bunkerdə, fərqi yoxdur. Onun imzası orada var. O, əslində, kapitulyasiya aktıdır. Bu, Azərbaycanın Qələbəsidir, torpaqlarımızın qayıtmasıdır, bayrağımızın ucaldılmasıdır. Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Hadrut, Suqovuşan, Murov dağı, Şuşa döyüş meydanında işğalçılardan azad edilib, o cümlədən Laçın rayonunun bir neçə kəndi, Kəlbəcər rayonunun bir hissəsi. Bu, şərtləndirib bizim qələbəmizi. Bizim qələbəmiz artıq Ermənistanda böyük problemlər yaratdı. Amma baxın beynəlxalq təşkilatların buna reaksiyası nədir? Varmı reaksiya? Yoxdur. Ermənistanda gündə hansısa müxalifət lideri həbs olunur, özü də tamamilə əsassız. Bir Qərb ölkəsi buna reaksiya veribmi? Yox. Bunu qınayıbmı? Yox. Əsas müxalifət partiyalarının rəhbərləri həbs olunub. Bir nəfər də söz demir. Avropa Şurası haradasan? Azərbaycana xor gözlə baxan, bizi qaralamağa çalışan, haradasan Avropa Şurası, niyə susursan? Yaxud da ki, monitorinq komitəsi. Orada bizim Azərbaycan üzrə bir neçə məruzəçi təyin ediblər. Ermənistan monitorinq altında olmalıdır. Niyə susursan Avropa Şurası? Hanı sənin rəhbərlərin, hanı sənin monitorinq komitən, siyasi komitən. Görmürsünüz ki, Ermənistanda repressiya baş alıb gedir? Görmürsünüz ki, diktator at oynadır? Özü də məğlub edilmiş diktator, rəzil vəziyyətdə olan diktator. Bəs, niyə səsinizi çıxarmırsınız? Bəs, hanı sizin demokratiyanız, insan haqlarınız? Cavab var? Yoxdur. Olmayacaq. Mənim sözlərimdən sonra bax, görərsiniz, olmayacaq. Ört-basdır edəcək, ört-basdır. Avropa Parlamenti Azərbaycana qarşı 10-dan çox eybəcər, yalan üzərində qurulmuş qətnamə qəbul edib. Niyə susursan Avropa Parlamenti? Özünü guya dünyanın demokratiya mərkəzi sayırsan. Bir səs çıxar, açıqlama ver, bəyanat ver, qına bunu. Dünyanın gözü qarşısında diktator bütün müxalifəti məhv edir. Bir adamı öldürüb. O parlamenti zəbt edənlər arasında bir nəfər artıq ölü tapılıb. Nə üçün səs qaldırmırsınız? Niyə? Müntəzəm olaraq bizə qarşı çirkin kampaniya aparan qeyri-hökumət təşkilatları, niyə susursunuz, niyə söz demirsiniz? Yaxşı, ballistik raketlə bizi vurdu susdunuz, kasetli bombalarla, fosforlu bombalarla bizi vurdu susdunuz. Böyük ölkələr, özlərindən Avropanın lideri düzəldən ölkələr, siz niyə susursunuz? Deyin, cavab verin. Yoxsa, yerindən duran burada bizə mız qoymaq istəyir, sataşmaq istəyir. Hamısının cavabını verirəm, hamısının, artıqlaması ilə.

Ermənistan diktatoru bunkerdə otura-otura özünü tamamilə dünyadan, öz xalqından təcrid edib, Azərbaycanda xalq-iqtidar birliyi. Bax, budur fərq. Budur bizim gücümüz. Bizim gücümüz birliyimizdədir. Güc və birlik. Yəqin, Azərbaycan xalqı xatırlayır, son 3-4 il ərzində mən öz çıxışlarımda dəfələrlə demişdim ki, dünya dəyişir, münasibətlər dəyişir, beynəlxalq hüquq işləmir, güc amili önə çıxır, “kim güclüdür o da haqlıdır” prinsipi üstünlük təşkil edir. Bütün bunları mənim çıxışlarımda görmək olar. Çünki mən beynəlxalq vəziyyəti düzgün təhlil etmişəm. Demək istəmirəm ki, biz də bu yolla gedək. Yox. Bizim yolumuz ədalət yoludur və beynəlxalq hüquq yoludur. Biz beynəlxalq hüququn kənarında bir iş görməmişik. Ancaq demişəm ki, güc amili ön plana çıxır və biz buna hazır olmalıyıq və hazırlıq işləri gedirdi, bütün bu illər ərzində, həm iqtisadi sahədə, həm beynəlxalq münasibətlər sahəsində, ilk növbədə, ordu quruculuğu sahəsində. Bu gücü topladıq, lazım olan anda vurduq, əzdik düşmənin başını. Elə əzdik ki, onu əbədi yadda saxlayacaq, əbədi. O damğanı vurduq. Azərbaycan xalqı müzəffər xalqdır. Azərbaycan Ordusu müzəffər ordudur. Biz döyüş meydanında qələbə qazanmışıq, siyasi müstəvidə qələbə qazanmışıq, torpaqlarımızı işğalçılardan azad etmişik.

Mən bu gün Ağdamın azad olunması xəbərini xalqıma böyük qürur hissi ilə çatdırıram, bu müjdəni verirəm. Bu gün bizim yaşadığımız günlər, yaşadığımız anlar, əminəm ki, hər bir azərbaycanlının yaddaşında əbədi qalacaq. Biz tarix yazırıq, yeni tarix. Xalqımızın, ölkəmizin yeni şanlı tarixini yazırıq. Bu, Zəfər tarixidir. Bundan sonra biz, ilk növbədə, işğaldan azad edilmiş torpaqlara vətəndaşlarımızın qaytarılmasını təmin etməliyik. Bütün gücümüzü səfərbər etməliyik. Bütün maddi imkanlarımızı səfərbər etməliyik ki, tezliklə vətəndaşlarımızı doğma torpaqlarına qaytaraq.

Əziz xalqım, əziz ağdamlılar, sizi bu gözəl tarixi hadisə münasibətilə bir daha ürəkdən təbrik etmək istəyirəm. Sizə cansağlığı, xoşbəxtlik arzulayıram. Ağdam bizimdir! Qarabağ Azərbaycandır!

# Mehriban Əliyeva Ağdamın işğaldan azad edilməsi münasibətilə xalqımızı təbrik edib



***Birinci vitse-prezident Mehriban Əliyevanın rəsmi “İnstagram” səhifəsində Ağdam rayonunun işğaldan azad edilməsi münasibətilə paylaşım edilib. SİA-nın məlumatına görə, paylaşımda deyilir:***




“Əziz həmvətənlər,

Sizi Ağdam rayonunun işğaldan azad edilməsi münasibətilə səmimi-qəlbdən təbrik edirəm və hər birinizə ən xoş arzularımı çatdırıram! Qoy Azərbaycanda daim sülh, sabitlik, əmin-amanlıq və təhlükəsizlik hökm sürsün! Qoy ölkəmizdə hər bir ev nur, xeyirxahlıq və səadətlə dolsun! Uca Tanrı xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun! Qarabağ Azərbaycandır!”.

# Əli Əhmədov: “YAP Azərbaycanın şərəfli tarixinin yaşıdı, möhtəşəm uğurlarımızın ilham mənbəyidir”



Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP Sədrinin müavini - icra katibi Əli Əhmədov Yeni Azərbaycan Partiyasının yaranmasının 28-ci ildönümü münasibətilə özünün rəsmi facebook səhifəsində paylaşım etmişdir. SİA-nın verdiyi məlumata görə, paylaşımda toxunduğu mövzunun aktuallığını nəzərə alaraq, onu oxucularımızın diqqətinə təqdim edirik: “Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi altında Yeni Azərbaycan Partiyasının təsis olunmasından 28 il keçir. Yeni Azərbaycan Partiyası müstəqilliyinə qovuşan ölkəmizin həyatının ən təlatümlü, həyəcanlı zamanında, torpaqlarımızın erməni işğalçıları tərəfindən zəbt edildiyi günlərdə yaradılırdı. Təsis edilməsinin 28-ci ildönümünü isə partiyamız ölkəmizin tarixinin ən şanlı anlarında - işğal edilmiş torpaqlarımızın azad edildiyi dövrdə qeyd edir. Yəqin ki, Yeni Azərbaycan Partiyasının builki ildönümü onun ən şərəfli, yaddaqalan ad günü olacaqdır. Partiyamızın yaradıcısı Ümummilli Lider Heydər Əliyev ötən əsrin 90-cı illərinin əvvəllərində total böhran içində boğulan, parçalanmaqda olan Azərbaycanı qurtuluşa qovuşdurub qüdrətli, müstəqil Azərbaycan dövlətini qurduğu kimi, onun layiqli davamçısı Prezident İlham Əliyev ölkəmizi torpaqlarımızın 30 illik işğalından xilas etdi. Yeni Azərbaycan Partiyası Azərbaycanın şərəfli tarixinin yaşıdı, möhtəşəm uğurlarımızın ilham mənbəyidir. Müasir Azərbaycanın həyatının ən möhtəşəm anları, ən nəhəng uğurları və tarixi qələbələri onun liderləri olan Heydər Əliyevin və İlham Əliyevin adları ilə bağlıdır. 1990-cı illərin əvvəllərində böhranların ağır məngənəsində boğulan Azərbaycanın çiçəklənən gənc dövlətə, məğlub ölkədən qalib ölkəyə çevrilməsi yaşadığımız və şahidi olduğumuz tarixin heyrətamiz inkişafıdır.

Yeni Azərbaycan Partiyası ecazkar siyasi taleyi olan təşkilat sayıla bilər və sayılmalıdır. Yaradılmasından cəmi 6 ay sonra hakim partiyaya çevrilməsindən tutmuş, Azərbaycanın həyatında baş verən ən nəhəng uğur və nailiyyətlərə qədər mütərəqqi və qürurverici nə varsa, ona rəhbərlik etmiş iki dahi şəxsiyyətin - Heydər Əliyevin və İlham Əliyevin sayəsində mümkün olub. Bu sırada xalqımızın tarixinin və taleyinin ən şərəfli hadisəsi - 30 illik işğaldan sonra doğma Qarabağın azad edilməsi xüsusi yer tutur. Torpaqlarımızın azad edilməsi ölkəmizin həyatında keyfiyyətcə yeni mərhələnin başlanğıcını qoyur. Bu, yeni imkanlar, yeni uğurlar, yeni zirvələr mərhələsi olacaq.

Yeni Azərbaycan Partiyasının yaradılmasının növbəti ildönümündə böyük hörmət və ehtiramla Ümummilli Lider Heydər Əliyevin əziz xatirəsini yad edirəm. Əlamətdar gün və tarixi qələbə münasibətilə Yeni Azərbaycan Partiyasının Sədri, Prezident, Ali Baş Komandan İlham Əliyevi səmimi qəlbdən təbrik etmək istəyirəm. Eləcə də, Yeni Azərbaycan Partiyasının 28-ci ildönümü və tarixi qələbələr münasibətilə partiyamızın bütün üzvlərini təbrik edirəm”.

# Ordumuz Ağdama Azərbaycan Bayrağını sancdı!

***Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin imzaladığı üçtərəfli Bəyanata əsasən noyabrın 20-də Ağdam rayonuna daxil olan Azərbaycan Ordusunun bölmələri ərazidə bir sıra tədbirləri həyata keçirib.***



Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qoşunlarımızın bu istiqamətdə təhlükəsiz hərəkətinin təmin edilməsi məqsədilə ərazilər gecə saatlarında minalardan təmizlənib, mühəndis-istehkam işləri başa çatdırılıb, hərəkət marşrutu üzrə yollar istifadəyə hazır vəziyyətə gətirilib. Hazırda bölmələrimizin şəxsi heyəti və zirehli texnikasının ərazidə dislokasiya olunması üçün zəruri tədbirlər icra olunur.



İşğaldan azad olunan Ağdam rayonu tamamilə Azərbaycan Ordusunun nəzarəti altına keçib. Ağdam şəhərinin mərkəzində Azərbaycanın Dövlət Bayrağı ucaldılıb, Dövlət Himni səsləndirilib və Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə məruzə olunub. Ağdam şəhərindəki Cümə məscidi və ərazisi hərbçilərimiz tərəfindən təmizlənib, məsciddə azan oxunub və cümə namazı qılınıb.



## “Le Monde” Ağdamın işğaldan azad olunmasından yazır




Ağdam - Azərbaycana geri qaytarılmalı olan 3 rayondan biri artıq bu ölkənin nəzarəti altındadır. Otuz ilə yaxın idi Ağdam Ermənistan silahlı qüvvələrinin nəzarətində idi. Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş naziri tərəfindən imzalanmış bəyanata uyğun olaraq, noyabrın 20-də Azərbaycan Ordusunun bölmələri Ağdama daxil olub. AZƏRTAC xəbər verir ki, bu fikirlər Fransanın “Le Monde” qəzetində dərc olunmuş məqalədə yer alıb.

Məqalədə altı həftəlik döyüşlərdən sonra Azərbaycanın öz rayonlarını azad etdiyi bildirilir. Qeyd edilir ki, bu rayonlardan bəziləri silah gücünə azad olunub, üçü - Ağdam, Kəlbəcər, Laçın isə bəyanata uyğun olaraq qaytarılır. Məqalədə ermənilərin Ağdamı da yandıraraq tərk etdikləri vurğulanır. Ermənilərin evləri yandırdıqları, azərbaycanlılara yalnız xarabalıqlar qoyduğu qeyd edilir.

Diqqətə çatdırılır ki, 1990-cı illərdə müharibə zamanı Azərbaycan əhalisi bu əraziləri tərk etməli olmuşdu. Ermənistan həmin ərazilərdə erməniləri məskunlaşdırmışdı. Məqalədə Azərbaycan Prezidenti İlham Əliyevin birinci xanım Mehriban Əliyeva ilə birlikdə azad olunmuş ərazilərə səfər etməsindən də bəhs olunur.

# Yeni Azərbaycan Partiyası: 28 İLLİK ZƏFƏR SİMVOLU!

## *Hakim partiya dövlətin inkişaf mərhələsində əvəzsiz töhfələrini verməkdə davam edir*

***Bu gün Yeni Azərbaycan Partiyasının yaranmasının 28-ci ildönümünü 30 il ərzində əzəli-əbədi torpaqlarımızı işğal altında saxlayan təcavüzkar Ermənistan hakimiyyətinin nəhayət ki, qanunsuz əməllərinə beynəlxalq hüquq çərçivəsində son qoyulduğu, tarixi ədalətin bərpa olunduğu, haqq savaşımızda qələbə qazandığımız - Qarabağ Azərbaycanındır!, Qarabağ Azərbaycandır! NİDA-sını qoyduğu tarixi günlər ərəfəsində qeyd edirik. Yeni Azərbaycan Partiyasının Sədri, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimizin düşmən tapdağı altında qalan torpaqlarımızı işğaldan azad etməsi bütün bəşəriyyətə ölkəmizin gücünün, qüdrətinin daha bir nümayişi oldu. Azərbaycan bütün dünyaya göstərdi ki, onun savaşı haqq savaşıdır.***



Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun sentyabrın 27-dən başladığı zəfər yürüşü 44 gün ərzində 30 ilin həsrətinə son qoydu, avantürist Ermənistanın təcavüzkar silahlı qüvvələrini darmadağın etdi, işğal altında qalan torpaqlarımızı əsl sahibinə qaytardı.

Və bu gün ən maraqlı məqam odur ki, Yeni Azərbaycan Partiyasının yaranmasının tarixi Azərbaycanın müstəqillik dövrünün tarixi ilə, demək olar ki, üst-üstə düşür. Və bu tarixin ardınca isə İkinci Qarabağ müharibəsinin şanlı qələbə tarixidir. Bu böyük qələbəni bizə Müzəffər Ali Baş Komandanımızın misilsiz cəsarəti və rəşadətli Ordumuz nəsib etdi. Böyük qələbəni al qanı ilə yazan şəhidlərimizin intiqamının alınması ilə əldə edilən zəfəri, qalibiyyəti Azərbaycan xalqına bəxş etməklə Prezident İlham Əliyev həm də həyatını Azərbaycana həsr edən, "Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur" - deyən Ulu Öndərin arzusunu reallaşdırdı. "Mən bu gün ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!".

Bəli, bu gün Ulu Öndəoimiz Heydər Əliyevin yaratdığı Yeni Azərbaycan Partiyasının yaranması ildönümünü tarixi bir anlarda - Qarabağımızın azad olunduğu, Ali Baş Komandanımız, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin diplomatik siyasəti, Müzəffər Ordumuzun, rəşadətli əsgər və zabitlərimizin qəhrəmanlığı sayəsində əldə edilən Qələbə günündə qeyd edirik. Yeni Azərbaycan Partiyası, ildönümün mübarək! Qarabağ Azərbaycandır! Gözün aydın Azərbaycan!

### Tarixi zərurətdən yaranan - YAP

Noyabrın 21-də yaranmasının 28-ci ildönümü tamam olan Yeni Azərbaycan Partiyasının cəmiyyətdə alternativsiz siyasi qüvvə kimi qəbul olunması onun ötən illərdə hər bir fərdin arzu və istəklərinin təminatçısına çevrilməsi ilə şərtlənir. Bu mənada YAP-ın növbəti ildönümü təkcə partiyamızın çoxsaylı üzvləri üçün deyil, ümumilikdə Azərbaycanın hər bir vətəndaşı üçün son dərəcə əlamətdardır. Xalqın taleyində müstəsna rol oynayan, Azərbaycanı xaos və anarxiyadan, vətəndaş müharibəsindən, iqtisadi tənəzzüldən, bir sözlə, dövlətçiliyin itirilməsi təhlükəsindən xilas edib davamlı sabitlik, tərəqqi və iqtisadi yüksəliş yoluna çıxaran bir siyasi qüvvənin - Yeni Azərbaycan Partiyasının yaranmasının 28-ci ildönümü ölkəmizin hər bir guşəsində təntənəli şəkildə qeyd olunur. Çünki Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında formalaşaraq siyasi həyata vəsiqə almış Yeni Azərbaycan



Partiyası ötən müddət ərzində milli birliyin, vətəndaş həmrəyliyinin, sabitlik və tərəqqinin təminatçısı qismində çıxış etmişdir. Azərbaycanın son illərdə keçdiyi mürəkkəb və ziddiyyətli yola nəzər salarkən YAP-ın xalqın və dövlətin taleyində mühüm rol oynayan partiya olduğu bir daha təsdiqini tapır. Ümumiyyətlə, ötən illərin reallıqları Heydər Əliyevin yaratdığı partiyanın kifayət qədər mürəkkəb və çətin şəraitdə ictimai zərurətdən yarandığını, xalqın mənafeyi naminə qarşıya qoyduğu hədəflərə doğru inamla irəlilədiyini, bir sözlə, xilaskarlıq və quruculuq missiyasının öhdəsindən əzmlə gəldiyini göstərir.

### YAP-a Heydər Əliyev kimi dünya şöhrətli LİDERİN Sədrlik etməsi partiyanın cəmiyyətdə böyük siyasi nüfuza malik olmasını şərtləndirirdi

Təsadüfi deyildi ki, o illərdə Heydər Əliyevin Azərbaycan Prezidenti seçilməsinin əngəllənməsi üçün Kostitusiyaya yaş senzi ilə bağlı qondarma maddə daxil edilmişdi. 1992-ci ilin aprel ayında xalqın iradəsinin ziddinə qəbul edilmiş bu antidemokratik addıma etiraz olaraq müxtəlif aksiyalar, imzatoplama kampaniyaları keçirilirdi. Ziyalılar, sadə insanlar Naxçıvan Muxtar Respublikasına üz tutaraq 1992-ci il oktyabr ayının 16-da Ulu Öndər Heydər Əliyevə Yeni Azərbaycan Partiyasının yaradılması xahişi ilə müraciət etdilər. Oktyabrın 24-də Ulu Öndərin ziyalıların müraciətinə məktubla verdiyi müsbət cavab Heydər Əliyevin yaranmış vəziyyətdə böyük məsuliyyəti üzərinə götürməkdən çəkinməyən, cəsarətli və qətiyyətli lider olduğunu bir daha təsdiqlədi. Qeyd edək ki, müraciətlər "SƏS" qəzetində dərc olundu. Ulu Öndər Heydər Əliyevin Azərbaycanın xilası naminə YAP-a rəhbərlik etməyə razılıq verməsi onun böyük siyasətə qayıdışının əsasını qoydu. 1992-ci il noyabrın 21-də partiyanın təsis qurultayı keçirildi. AXC hakimiyyətinin ümummilli liderin Bakıya gəlməsinə ciddi maneələr yaratması ucbatından partiyanı yaratmaq istəyən insanların bir hissəsi - 550 nəfərdən ibarət təşəbbüs qrupu Naxçıvana gedərək təsis konfransını orada keçirməyə nail oldu. Təsis konfransı Yeni Azərbaycan Partiyasının yaradılması haqqında qərarı, partiyanın proqram və nizamnaməsini qəbul etdi, Heydər Əliyev yekdilliklə partiyanın Sədri seçildi.

YAP-ın qısa müddətdə ölkənin siyasi sistemində aparıcı təşkilata çevriləcəyi, onun ətrafında toplaşmış intellektual potensialın xalqımızın ümummilli problemlərinin həllində mühüm faktorlardan biri olacağı aksiom idi. Bir sıra səbəblər bu qənaətə gəlməyə ciddi əsaslar yaradırdı. Çünki YAP-a Heydər Əliyev kimi dünya şöhrətli LİDERİN sədrlik etməsi partiyanın cəmiyyətdə böyük siyasi nüfuza malik olmasını şərtləndirirdi. İkincisi, ölkəmizin böyük nüfuza və hörmətə malik yüksək intellekt sahibləri partiya sıralarında birləşmişdi. Üçüncüsü, Partiya Azərbaycanın bütün regionlarını təmsil edən ciddi sosial bazaya əsaslanırdı. Ən nəhayət, Yeni Azərbaycan Partiyasının siyasi fəaliyyətinin ictimai rəydə doğurduğu müsbət reaksiya onun cəmiyyətə təqdim etdiyi ideologiyanın cəlbediciliyində özünü göstərirdi.

### Sabitlik və inkişafın ideoloji istinadgahları...

YAP bu gün cəmiyyətdə böyük nüfuza malikdir. Partiyanın proqramında irəli sürülmüş əsas vəzifələr - dövlət müstəqilliyinin möhkəmləndirilməsi, demokratik, hüquqi, dünyəvi dövlətin qurulması, vətəndaşların dinc və firavan həyatının təmin edilməsi xalqımızı tam qane edir. Partiya məfkurəsinin əsasını təşkil edən müstəqil dövlətçilik, qanunçuluq, azərbaycançılıq, yaradıcı təkamül, vətəndaş həmrəyliyi və sosial ədalət prinsipləri YAP-ın qarşısında duran vəzifələrin həyata keçirilməsinin ideya təminatı olaraq mahiyyətcə Azərbaycanın siyasi gələcəyinin ideya bazasına çevrilmişdir. Bütün bunların fonunda YAP-ın 28 ildə ölkənin siyasi sistemində aparıcı təşkilata çevrildiyi, onun malik olduğu potensialın respublikanın problemlərinin həllində mühüm faktorlardan biri kimi çıxış etdiyi təkzibolunmaz həqiqətdir. YAP-a İlham Əliyev kimi güclü siyasi Liderin rəhbərlik etməsi partiyanın nəinki daxildə, eləcə də respublikamızdan kənarda güclü və nüfuzlu siyasi qüvvə kimi qəbul olunmasını təmin edir və YAP-ın siyasi fəaliyyətinin ictimai rəydə doğurduğu müsbət reaksiya onun cəmiyyətə təqdim etdiyi ideologiyanın cəlbediciliyində özünü göstərir. Partiyanın qarşıya qoyduğu məqsədlər bütün dövrlərdə zamanla səsləşdiyindən, ictimaiyyətin böyük diqqətinə, marağına səbəb olur. Hakim partiya məhz ictimai maraqları mütəşəkkil şəkildə realizə etməklə ölkə vətəndaşlarının siyasi istinadgahına çevrilməyə nail olmuşdur. Ölkənin xüsusən də son illər əldə etdiyi böyük uğurlar YAP kimi nüfuzlu partiyanın hakimiyyət Olimpində qalması və daha da möhkəmlənməsi yolunda bütün siyasi baryerləri aradan qaldırır.

YAP-ın 28 ildəki ən böyük uğurlarından biri partiyanın cəmiyyətin bütün təbəqələrinin maraqlarını ifadə edən ümummilli siyasət yürütməsidir. Ümumiyyətlə, YAP yarandığı gündən sosial ədalət prinsipinə də sadiqlik nümayiş etdirmişdir. Belə ki, cəmiyyətlərdə sosial sabitliyə nail olmaq, humanizm və ədalət prinsiplərini qorumaq dövlətin siyasətinin əsas istiqamətlərindəndir.

Bu özünü bütün seçkilərdə də göstərib. Partiya istər prezident, istər parlament, istərsə də bələdiyyə seçkilərində daim öndə olub, tarixə qələbə və zəfərlər partiyası kimi dşüüb. Biz növbəti qələbə və zəfərlər yolunda Yeni Azərbaycan Partiyası ətrafında daha da sıx birləşərək, irəliyə doğru inamla addımlayırıq!.

Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin dediyi kimi: "Bu gün Azərbaycanda bizim partiyamıza rəqib ola biləcək hər hansı bir siyasi qüvvə mövcud deyil. Yeni Azərbaycan Partiyası, sözün əsl mənasında, ümumxalq partiyasına çevrilibdir. Cəmiyyətimizin bütün təbəqələri partiyamızda birləşib. Buna baxmayaraq, biz həmişə qabağa baxmalıyıq və əldə edilmiş uğurlarla kifayətlənməməliyik. Uğurlarımızın səbəblərindən biri də məhz ondan ibarətdir ki, əldə edilmiş uğurlar bizə əlavə stimul verir. Çatışmayan cəhətləri aradan qaldırmaq, sosial ədaləti daha da böyük dərəcədə bərqərar etmək üçün biz bundan sonra da fəal çalışmalıyıq".

Beləliklə, Yeni Azərbaycan Partiyası ötən 28 il ərzində böyük inkişaf yolu keçib və bir çox uğurlara imza atıb. Bütün bunlar deməyə əsas verir ki, ümumxalq partiyası olan YAP-ın fəaliyyəti qarşıdakı dövrdə də Azərbaycanın inkişafına xidmət edəcək. Dövlətimizin başçısının qeyd etdiyi kimi: "Bizim əldə edilmiş bütün uğurlarımızda Yeni Azərbaycan Partiyasının, onun üzvlərinin böyük əməyi, zəhməti, rolu var. Bu gün partiyamız ölkəmizin aparıcı siyasi qüvvəsi kimi bu böyük məsuliyyəti hiss edir, onu öz üzərinə götürür. Partiyamızın üzvləri müxtəlif sahələrdə ölkəmizin ümumi inkişafına çox böyük töhfələr verirlər. Bu gün Yeni Azərbaycan Partiyası dünya miqyasında çox böyük və güclü partiyadır. Bizim beynəlxalq əlaqələrimiz də genişlənir. Beləliklə, məndə partiyamızın gələcək inkişafı ilə bağlı çox nikbin fikirlər var".

Bir sözlə, bu gün Ulu Öndərimiz Heydər Əliyevin Azərbaycan xalqına bəxş etdiyi unudulmaz töhfələrlə, müstəqilliyimizlə, bu günümüzlə inkişafımızla, xoşbəxt həyatımızla fəxr edir və gələcəyimiz uğurunda düşünürük. Sevinirik ki, Ulu Öndər Heydər Əliyevin ideyaları yaşayır, qalib gəlir. Azərbaycan Prezidenti, Ali Baş Komandan, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev tərəfindən bu ölməz amallar sədaqətlə, cəsarətlə daha müvəffəqiyyətlə həyata keçirilir. Hər bir Azərbaycan vətəndaşı Vətənini, xalqını sevən hər bir kəs Yeni Azərbaycan Partiyasını, Ulu Öndər Heydər Əliyevə və böyük rəhbərin sədaqətli davamçısı Prezidentimiz İlham Əliyevlə qürur duymağa haqlıdır. Belə bir gündə uğurlarımızla sevinməyə, öyünməyə dəyər.

**RƏFİQƏ KAMALQIZI**

# Bəhruz Quliyev: “Müharibə dönəmində Azərbaycan mətbuatı vahid cəbhədə vuruşdu”

*“Ümumiyyətlə Azərbaycan mətbuatı heç bir zaman erməni və digər millətlərin kilsəsi haqqında neqativ məlumatlar verməyib və vermək ixtiyarında da deyil. Çünki bu bizim daxili və milli mədəniyyətimizə sığmır”. Bunu SİA-ya SƏS Media Qrupunun rəhbəri, siyasi ekspert Bəhruz Quliyev deyib.*



Siyasi ekspertin sözlərinə görə, ermənilərin dini-tarixi abidələrimizə qarşı etdikləri vandal hərəkətlər dünyaya çatdırılmalıdır: “Amma etiraf etmək lazımdır ki, biz bu məlumatları dünyaya çatdırmaqda bir qədər zəiflik nümayiş etdiririk. Özümüz deyib, yazıb və oxumaqla böyük iş görə bilmərik. Biz bunu dünyaya çatdırmalıyıq. Lakin təəssüflər olsun ki, dünyada da bir qısqanclıq hökm sürür. Necə ki siyasətdə, diplomatiyada ikili baxış standartı var, həmin baxışlar eyni zamanda bizim milli mədəniyyətimizə, mənəviyyatımıza qarşı da yönəldilib. Məhz o baxışların nəticəsidir ki, biz bu gün həqiqətləri dünyaya çatdıra bilmirik.

Vətən müharibəsi dönəmində cənab Prezident İlham Əliyev xarici mətbuata kütləvi şəkildə 30-dan artıq müsahibələr verdi. Həmin müsahibələrin hər biri bütün dünya mətbuatında yayımlandı. Bir məqamı qeyd etmək istərdim ki, həmin müsahibələrin özündə də bəzən ittihamedici notlar hiss olunurdu. Bəzi suallar təxribatçı və provakasiya xarakteri daşıyırdı. Axı jurnalist hansı hüquqla bir ölkənin başçısına qarşı bu formada suallar ünvanlaya bilər? Təbii ki, dövlət başçımız çox ustalıqla və qətiyyətli şəkildə həmin təxribatçı suallara cavab verdi. Jurnalistin davranışı bir növ həmin dövlətlərin münasibətini ortaya qoydu. Başqa bir misal çəkmək istərdim. Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı həqiqətləri əks etdirdiyənə görə Fransanın “TF1” telekanalı Fransada yaşayan ermənilərin ciddi təzyiq və təhdidinə məruz qaldı. Bu faktla söz və mətbuat azadlığı kobud şəkildə pozudu. Fransız jurnalistləri peşə fəaliyyətlərinə görə təhdid edilər. Erməni lobbiçiliyi və diasporasının təzyiqi, təqibi nəticəsində həmin sujet çıxarıldı və bir daha yayımlanmadı. Dünya bunu eşitməlidir. Çox sevinirəm ki, müharibə dönəmində Azərbaycan mətbuatı vahid cəbhədə vuruşdu. Amma gəlin biz bu cəbhədə özümüz deyib, özümüz eşitməyək. Xatırlayırsınızsa, müharibə dönəmində informasiya məkanımıza çoxsaylı hücumlar oldu və bunun qarşısı alındı. Mətbuat sahəsində də biz onları üstələdik və qalib gəldik”.

**Ceyhun Rasimoğlu**

# Tahir Rzayev: “Cənab Prezidentin müraciəti xalqımıza böyük inam, ümid verir”

“Bu gün Ağdamın işğaldan azad olunması günüdür. Əlbəttə ki, bu hər bir Azərbaycan vətəndaşını sevindirir. Hər bir insan Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandanımız Cənab İlham Əliyevin rəşadəti, böyük iradəsi sayəsində torpaqlarımızın işğaldan azad olunmasını, hər qarış uğrunda gedən mübarizəni yüksək qiymətləndirir, dəyərləndirir və ölkəmizin rəhbərinə öz minnətdarlığını bildirir.” Bu sözləri SİA-ya verdiyi açıqlamasında Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri, millət vəkili Tahir Rzayev deyib.

Komitə sədri vurğulayıb ki, Azərbaycan Respublikasının Prezidenti, Ermənistanın baş naziri, Rusiya Federası prezidenti tərəfindən imzalanmış üçtərəfli bəyanata əsasən, Ağdam rayonunun işğaldan azad olunması və qoşunlarımızın Ağdam şəhərinə girməsi əlbəttə ki, qürürverici bir haldır və bu əsas verir ki, Kəlbəcər də, Laçın da, digər ərazilərimiz də daxil olmaqla, bütün torpaqlarımız tez bir zamanda düşməndən tamamilə azad olunacaq və Azərbaycan Respublikası öz ərazi bütövlüyünü tam təmin edəcək.

“Əlbəttə ki, bu qələbə, Azərbaycan Respublikası Prezidenti Cənab İlham Əliyevin Ali Baş Komandan kimi ordumuza dəstəyinin ifadəsidir, əsgər və zabitlərimizin böyük şücaətidir. Çünki, bu dəstək, bu şücaət, bu qəhrəmanlıq olmasaydı, ərazilərimizin bir hissəsi güc hesabına düşməndən azad olunmasaydı, biz bu gün öz sözümüzü deyə bilməzdik. Əlbəttə ki, bu işlərə ciddi hazırlıq görülmüşdü. Ölkə rəhbəri uzun illər həyata keçirdiyi siyasətin əsasında Azərbaycan Ordusunun möhkəmləndirilməsinə, əsgər və zabitlərimizin hazırlığının təkmilləşdirilməsinə böyük önəm verirdi və o hesablamışdı ki, hər bir vasitədən istifadə etməklə sülh yolu ilə mümkün olmasa, Azərbaycan torpaqları hərb yolu ilə düşməndən azad olunmalıdır. Cənab Prezident bu qənaətində haqlı idi, çünki erməni təcavüzkarlarının, onlara havadarlıq edənlərin hərəkətləri əməlləri göstərirdi ki, ermənilər, Ermənistanın hərbi-siyasi hakimiyyəti torpaqları sülh yolu ilə azad etmək fikrində deyillər, onlar nəinki işğal altında olan torpaqları azad etmək, eləcə də digər torpaqları işğal altına salmaq, mənfur niyyətlərini yerinə yetirmək istəyirdilər. Ancaq ölkə rəhbəri bütün bu gedişləri ətraflı təhlil etdikdən və bütün qüvvələri səfərbər etdikdən sonra hərb yoluna üstünlük verilməsi qərarına gəldi və torpaqlarımızın azad edilməsi ilə bağlı öz əmrini verdi”, deyə komitə sədri xatırladıb.



Millət vəkili vurğulayıb ki, bizim hər birimiz Azərbaycan Ordusunun az bir müddətdə öz sözünü deyə bilməsinə, öz şücaətini göstərə bilməsinə və Ermənistan Silahlı Qüvvələri üzərində, təcavüzkar erməni quldurları üzərində layiqli qələbəsini qazana bilməsinə sevinirik.

“Əlbəttə ki, imzamanmış bəyanat göstərir ki, dekabr ayının birinə kimi digər rayonlarımız da işğaldan azad oluna biləcək. Bu gün Azərbaycan Respublikasının Prezidenti bir daha xalqa müraciətində göstərdi ki, biz azğın düşmənlə üz-üzə idik, biz faşizmi təbliğ edən, faşizmə xidmət edən və faşist əməllərini yerinə yetirən bir dövlətlə, separatçılarla üz-üzə idik və bu qarşılaşmada, bu döyüşdə biz qalib gəldik. O, bildirdi ki, biz erməni xalqına qarşı vuruşmurduq, biz erməni xalqı ilə birgə yaşamağa, əməkdaşlığı möhkəmləndirməyə həmişə hazırıq. Biz erməni faşitlərinə qarşı vuruşurduq. Biz torpaqlarımızı işğal altında qoyan separatçılara qarşı vuruşurduq və bizim mübarizəmiz haqq mübarizəsi idi. Biz bundan sonra həmin o işğal altında olan torpaqlarda törədilmiş cinayətkarlıq hallarının aradan qaldırılması üçün qüvvələrimizi səfərbər etməliyik və həmin torpaqlar çiçəklənəcək, həmin torpaqlar abadlaşdırılacaq və xalqımız o torpaqlarda firavan həyat sürəcəklər. Ölkə rəhbəri dəfələrlə xatırlatmışdı və yenə də xatırlatdı ki, erməni xalqı əgər Azərbaycanla səmimi münasibətlərdə olmaq istəsə, biz gələcəkdə bu münasibətləri yaxşılaşdırmağa önəm verəcəyik və Azərbaycanda yaşayan Azərbaycan vətəndaşları olan ermənilər bu torpaqlarda xoşbəxt yaşaya bilərlər və onlar üçün heç bir maneə törədilməyək. Dövlət başçısı qətiyyətlə bildirdi ki, Azərbaycanda yaşayan ermənilərə daimi diqqət, qayğı göstərilib, illər boyu onlar bu torpaqlarda xoşbəxt yaşayıblar. Çox təəssüflər olsun ki, sonrakı illərdə erməni separatçıları, erməni faşistləri özlərini bədbəxt etdikləri kimi, həm də erməni xalqını da bədbəxtliyə sürükləyiblər və onlar erməni terrorizminin, erməni faşizminin qurbanlarına çevriliblər. Dövlətimizin başçısı Ermənistanda baş verən hallara diqqəti cəlb elədi, göstərdi ki, bu gün Ermənistan dövləti dağılmaq ərəfəsindədir, Ermənistanın baş naziri heç cür bu dövləti idarə edə bilmir, iğtişaşlar baş alıb gedir, orada, Ermənistanda diktatura cəmiyyəti yaradılıb və belə bir cəmiyyətdə də qarşıya qoyulan vəzifələri həyata keçirmək qeyri-mümkündür. Ancaq buna baxmayaraq Azərbaycan dövləti yenə də sülh məramı ilə ermənilərlə sülh şəraitində yaşamağa təklifinə razıdır və bu sahədə təşəbbüs göstərən hər bir ölkənin təşəbbüsü qiymətləndirilmədir. Azərbaycan Respublikası Prezidentinin bu müraciəti bir daha Azərbaycan xalqına gələcək qələbələr üçün böyük inam, ümid verir. Sözsüz ki, xalqımız öz rəhbərinin, Ali Baş Komandanının ətrafında birləşib, onu dəstəkləyir və bundan sonra da dinc quruculuq işlərində Azərbaycan Prezidentinə dəstək verməyə hazırdır. Qələbələr bizimlədir, biz qələbələrimizi təmin etməliyik və etmişik. Qarabağ Azərbaycandır!”, deyə Tahir Rzayev bildirib.

**İnam Hacıyev**

# Aygün Attar: “Türkiyə və Azərbaycanın iki böyük liderinə qarşı çıxarılan qərarlar təsirsiz olacaq”

Hollandiya parlamentinin Azərbaycan əleyhinə qərar çıxarmaq cəhdinə ən sərt reaksiyalardan biri də Türkiyədə verilməkdədir. SİA xəbər verir ki, Türkiyə-Azərbaycan Dostluq, İşbirliyi və Dəstək Vəqfinin başqanı, professor,. Doktor Aygün Attar sözügedən mövzu ilə bağlı qardaş ölkənin “Sabah” nəşrinə danışıb. “İslamofobiya çirkin üzünü bir daha göstərdi. Türkiyə və Azərbaycanın iki böyük liderinə qarşı çıxarılan qərarlar təsirsiz olacaq”, deyə qeyd edən Aygün Attar bildirib ki, Hollandiya parlamentinin siyasi olaraq motivizasiya etdiyi birtərəfli iddiaları, çağırışları nəticəsiz qalacaq.




“Ermənistanın təcavüzkar siyasəti mülki vətəndaşlara qarşı qəddar hücumlarla sübuta yetirilib”

Xanım başqan buna bir sıra əsaslar gətirib və bildirib ki, parlament qərarı ucuz və uğursuzdur. Belə ki, Azərbaycan öz torpaqlarına sahiblik edir, son 30 ildə bir milyondan çox qaçqın Azərbaycan vətəndaşının ağrıacıları unudulmamalıdır, İşğalçı erməni terrorçuları və Ermənistanın təcavüzkar siyasəti mülki vətəndaşlara qarşı qəddar hücumlarla sübuta yetirilib, beynəlxalq hüquq Türkiyə və Azərbaycan xalqının gözündə təsirsizdir və s.

Aygün Attar qeyd edib ki, Dağlıq Qarabağ müharibəsində cərəyan edən son hadisələr dünya tərəfindən yaxından izlənildi.

“Türkiyə və Azərbaycana qarşı irqçi düşmənçiliyə yönəlmiş çağırışlar kimin haqlı, kimin isə haqsız olduğunu dəyişdirməyəcək”

“Ermənistan və çirkin savaş günahlarının dəstəkçiləri yaxında beynəlxalq hüquqa uyğun olaraq, cəza məhkəmələrində bu davranışlarının qanuni nəticələri ilə üzləşəcəklər”, deyən Türkiyə-Azərbaycan Dostluq, İşbirliyi və Dəstək Vəqfinin başqanı xatırladıb ki, hazırkı zamanda belə qərarlara səs verən deputatlar sabah müharibə cinayətlərinə və insanlığa qarşı törədilən əməllərə ortaq sayılacaqlar.

“Türkiyə və Azərbaycana qarşı irqçi düşmənçiliyə yönəlmiş çağırışlar kimin haqlı, kimin isə haqsız olduğunu dəyişdirməyəcək”, Aygün Attar vurğulayıb.

**Rövşən RƏSULOV**

# Erməni general: “Müharibənin 5-ci günündə 1500 fərarimiz var idi”

***“Silahlı qüvvələrin informasiya mərkəzi olur və bu mərkəzin öhdəliyinə düşən vəzifələrdən biri də düşməni çaşqınlığa salmaqdan ibarətdir. Yəni yalan informasiyaların yayılması”. SİA xəbər verir ki, bu fikirləri Ermənistan ordusunun baş qərargahının sabiq rəisi, general Movses Akpoyan bildirib. Akopyan buna rəğmən qeyd edib ki, burada da müəyyən prinsiplər mövcuddur: “Yəni yalan informasiyanın yalnız 30%-ini tətbiq etmək, yerdə qalanı isə həqiqəti əks etdirməlidir. Bizim yalan informasiyalarımız isə 100%-i təşkil edib”.***



Erməni generalı etirafda da bulunub. “Müharibənin 5-ci günü bizim artıq 1500 fərarimiz var idi. Onlar müəyyən yerlərdən toplanmışdılar. Fərariləri Ermənistana geri dönməmələri və ölkədə panika yaymamaları üçün xüsusi yerlərdə saxlayırdılar”, Akopyan deyib.

# Prezidentə yazırlar: Qazandığınız hərbi-siyasi uğurlarla qürur duyuruq!

***Azərbaycan Ordusunun Ermənistan silahlı qüvvələri üzərində qələbələri, o cümlədən Şuşa şəhərinin işğaldan azad olunması, Ermənistanla Azərbaycan arasında illərdən bəri davam edən münaqişənin nizama salınması barədə 2020-ci il noyabrın 10-da müqavilə imzalanması xalqımız tərəfindən yüksək sevinc və böyük ruh yüksəkliyi ilə qarşılanıb. Bu münasibətlə vətəndaşlar Prezident, Ali Baş Komandan İlham Əliyevə çoxsaylı təbrik və minnətdarlıq məktubları yazmaqda davam edirlər.***



Trend məktublardan bəzilərini təqdim edir.

**Fuat Aytandan, İstanbul, Türkiyə**

Hörmətli cənab Prezident.

Mən bir türk vətəndaşı kimi ata dediyim Azərbaycanla, Sizinlə, ölkənizlə, dövlətinizlə, əsgərinizlə qürur duyuram.

Var olun, sağ olun, müzəffər Ali Baş Komandan!

Ata-baba yurdumun yerləşdiyi torpaqların işğaldan qurtulması məni xoşbəxt etdi.

Azərbaycan üçün nələr edə biləcəyimi bilmirəm. Bir evim, bir az da pulum var. Lazım olsa, onları böyük məmnuniyyətlə Azərbaycanın gələcəyi üçün fəda etməyə hazıram. İnşallah, azad olunmuş torpaqları ziyarət etmək, həmin torpaqları öpmək arzum da həyata keçər.

Sizin kimi müzəffər Ali Baş Komandanın qarşısında baş əyirəm.

**Hakan Yağmurdan, Antalya, Türkiyə**

Hörmətli cənab Prezident.

Qarabağın azadlığı üçün göstərdiyiniz əzmkarlıq, qətiyyət və cəsarət Azərbaycan xalqı kimi bizi də qürurlandırdı.

Sizi kimi qardaşlarımız olduğu üçün biz xoşbəxtik. Azərbaycan xalqı isə Sizin kimi Lideri olduğuna görə xoşbəxtdir. Və hamımız ona görə xoşbəxtik ki, eyni qanı daşıyır, eyni tarixə malikik, ürəklərimiz eyni həyəcanı paylaşır.

Mən Türkiyə Respublikasının vətəndaşı olaraq ən səmimi hisslərlə bildirirəm ki, canımızla, qanımızla Sizlərin yanında olmaqdan qürur duyuruq.

Heç bir qarşılıq gözləmədən hər zaman Azərbaycan xalqının yanındayıq. Bütün cəbhələrdə Sizinlə çiyin-çiyinə dayanmaq, əlimizdən gələni etmək bizim borcumuzdur.

Sizə və Azərbaycan xalqına sonsuz sevgi və ehtiramımı çatdırmaq istəyirəm. Unutmayaq ki, bizlər bazara qədər deyil, məzara qədər qardaşıq.

Zəfər Azərbaycan xalqınındır!

**Emil Cəfərovdan, Omsk, Rusiya**

Müzəffər Ali Baş Komandan.

Sizi Rusiya Federasiyasının Omsk şəhərindən salamlayıram. Bu məktubu yazmaqda məqsədim bir Azərbaycanlı kimi öz səmimi duyğularımı Sizə bildirməkdir.

Əziz Prezidentim, xarici dövlətdə yaşamağımıza baxmayaraq uzun illər boyu Rusiya Federasiyasında məskunlaşan mənfur qonşularımızın vətəndaşları ilə qarşılaşdıqda içimdən utancverici bir hiss keçirdi, bu hissin adı Qarabağ idi. Əslində bu hissləri hər bir Azərbaycan vətəndaşı yaşayıb. Mən bu hissləri büruzə verməsəm də, düşmənə hiss etdirməsəm də qəlbimdə böyük əzab çəkirdim. Qarabağda itirilmiş torpaqlarımız, qətlə yetirilmiş vətəndaşlarımız, körpələr, qocalar, bacı və qardaşlara edilmiş zülmlər bizi çox sarsıtmışdı. Nəhayət o gün yetişdi. 2020-ci il sentyabrın 27-dən etibarən hər şey dəyişdi. İşğalda olan şəhər, rayon, qəsəbə və kəndlərimizin Ordumuz tərəfindən ard-arda azad edilməsi xəbərlərini verdiyiniz hər çıxışınızı səbirsizliklə gözləyirdik. 30 ildən sonra üzümüzə təbəssüm bəxş etdiniz, əzmkarlıq hissini yaşatdınız. Böyük işlər gördünüz, ölkəmizi dünya səviyyəsində təmsil etdiniz. Dünyaya sübut etdiniz ki, biz birlikdə güclüyük. Azərbaycan xalqı Sizinlə qürur duyur, hər zaman yanınızdayıq. Şəxsən öz adımdan və Omsk vilayətində yaşayan bütün azərbaycanlılar adından 2020-ci il noyabrın 10-da böyük Qələbə sevincini bəxş etdiyiniz üçün Sizə minnətdarlığımı bildirirəm. Sizə uzun ömür, cansağlığı arzulayıram. Yaşasın xalqımız və şanlı Ordumuz! Vətən uğrunda şəhid olmuş bütün qardaşlarıma Allahdan rəhmət, ailələrinə səbir diləyirəm.

Qarabağ Azərbaycandır!

**Ömər Cengizhanoğlu və başqalarından, Bolu, Türkiyə**

Hörmətli cənab Prezident.

Sizi uca Alalhın adı ilə salamlayır, gözəl Türkiyəmizdən, türk xalqının adından sevgi və ehtiramımı bildirirəm.

Zəfəri zəfərə calamaqla tarixə düşən Azərbaycan Ordusunu səmimi qəlbdən təbrik edir, hər əsgərin alnından öpürük. Çanakkale, Sakarya döyüşləri ilə türk və dünya tarixinə qızıl hərflərlə yaxan türk ordusunun qardaşı olan, ermənilərə tarixi dərs verən Azərbaycan Ordusu bu gün cəbhədən Qələbə ilə qayıdır.

Bir yumruq kimi birləşmiş Azərbaycan Ordusu qazandığı qələbələrlə ulu öndər Heydər Əliyevin və minlərlə şəhidin ruhlarını şad etmişdir. Dəyərli Prezidentimiz, bütün sahələrdə apardığınız uğurlu siyasətlə tarixə ad salmış türk fatehlərinin davamçısı olduğunuzu dünyaya göstərdiniz.

Mən təqaüddə olan müəlliməm. İnşaat mühəndisi olan və Gülhanə Tibb fakültəsində oxuyan oğlumla birlikdə Azərbaycan Ordusu üçün əlimizdən gələn köməyi etməyə hazırıq. Dünyanın hələ də unutmadığı Çanakkale zəfərindən sonra Sizlər Qarabağ zəfərini tarixə yazdınız. Bütün türk xalqları Sizin bu qəhrəmanlığınızı unutmayacaqdır.

Heç şübhəm yoxdur ki, Qarabağdan zəfərlə dönən şanlı Azərbaycan Ordusu əsl qəhrəmanlar kimi qarşılanacaq. Onlara bir daha Azərbaycan xalqına və bizlərə yaşatdıqları sevinc və xoşbəxtliyə görə minnətdarlıq bildirirəm. Qarabağın azad olunması münasibətilə keçiriləcək şənliklərdə iştirak etmək ümidi ilə müraciətimi ən ülvi hisslərimi ifadə edən sözlərlə bitirmək istəyirəm:

Salam olsun qızıl qəlbli rəhbərimiz İlham Əliyevə!

Salam olsun Qarabağ yolunda dastan yazan şanlı Azərbaycan Ordusuna!

Salam olsun ordusu ilə milli birlik göstərən qardaş Azərbaycan və türk xalqlarına!

**Elxan Şabanovdan, Zaqatala, Azərbaycan**

Hörmətli Prezident, müzəffər Ali Baş Komandan.

Noyabrın 8-də Siz Şuşamızın alınması xəbərini verməklə xalqımıza qələbə sevincini yaşatdınız. Otuz illik böyük bir yükü çiyinləri üzərində gəzdirən, ağrıdan-acıdan qovrulan xalqımız məhz Sizin sayənizdə indi sevinc, zəfər salnaməsinin himni altında qürurla addımlayır.

Yaşım əlli altını haqlamasına baxmayaraq, bu dəqiqə igid övladlarımızla birlikdə düşmənə qarşı vuruşmağa hazıram.

Allah Sizi və müzəffər Ordumuzu qorusun!

**Tahir Cəbrayılovdan, Gəncə, Azərbaycan**

Hörmətli Prezident, müzəffər Ali Baş Komandan.

Müharibə başlayandan hər gün Sizə məktub yazıb ürək sözlərimi çatdırmaq istəyirdim. Amma böyük günü - Şuşanın işğaldan azad olunması gününü gözləyirdim. Mən Azərbaycanın bir vətəndaşı olaraq ailəmlə birlikdə həmişə Sizə inanmışıq və güvənmişik.

Yaşasın müzəffər Ali Baş Komandanımız və rəşadətli Azərbaycan Ordusu!

Elimin şanlı, qəhrəman oğlu, bu böyük Qələbə münasibətilə Sizi ürəkdən təbrik edirəm.

**Dilrubə Behbudovadan, Ağdam, Azərbaycan**

Hörmətli Prezident, müzəffər Ali Baş Komandan.

Əzəli və əbədi torpaqlarımız olan Qarabağın düşmənlərdən azad edilməsi haqqında verdiyiniz əmri eşidəndə çox sevindim. Siz bütün dünyaya bizim xalqın, millətin gücünü və qüdrətini bir daha sübut etdiniz. Mənim bu gün sevincimin həddi-hüdudu yoxdur.

Mənim oğlum Zəngilan rayonu uğrunda gedən döyüşlərdə - 1992-ci ildə itkin düşüb. Zəngilanın işğaldan azad edilməsi xəbərini eşidəndə çox qəhərləndim, çox sevindim ki, oğlumun uğrunda vuruşduğu torpaq alındı, qisası yerdə qalmadı.

Sevimli oğlum, Sizi dünya durduqca yaşayasınız. Siz mənə bu yaşlı vaxtımda bu sevinci yaşatdı-



Kəlbəcər, Şuşa dağları, Zəngilan, Laçın çinarları kimi ucalıq, uzunömürlülük arzulayıram.

**Məlahət Cəfərovadan, Füzuli, Azərbaycan**

Müzəffər Ali Baş Komandan,

Sizin rəhbərliyinizlə doğma torpaqlarımızın öz həqiqi sahiblərinə - bizə qaytarılması uğrunda başladığımız haqq mübarizəsində Qələbə bizim oldu. Azərbaycan xalqının necə igidlər yetirdiyini bütün dünya gördü.

Qalibiyyəti bizə bəxş edən Sizi və müzəffər Ordumuzu Allah daim qorusun!

Qarabağ bizimdir!

**Telman Hacıyevdən, Ağcabədi, Azərbaycan**

Hörmətli cənab Prezident,

Rəhbərliyiniz altında şanlı Ordumuzun işğal altında inləyən torpaqlarımızı azad etməsi və Vətən müharibəsinin bizim Qələbəmizlə başa çatması münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm. Yorulmaz fəaliyyətinizdə Sizə uğurlar arzulayıram.

Qarabağımızı bizə qaytaran Müzəffər Ali Baş Komandan, Allahdan Sizə uzun ömür, cansağlığı diləyirəm.

Yaşasın Azərbaycan!

**Elxan Mövlamovdan, Xaçmaz, Azərbaycan**

Müzəffər Ali Baş Komandan,



nız. Allah Sizi və övladlarınızı qorusun. Allah şanlı və qüdrətli Ordumuzu qorusun. Siz biz məcburi köçkünlərin 30 ilə yaxın olan Vətən-torpaq həsrətinə son qoydunuz. Mən ürəyimdən gələn xoş arzuları Sizə çatdırmağı özümə borc bilirəm. Arzu edirəm ki, bütün Qarabağ torpaqlarımız düşmən işğalından tamamilə azad olunsun, Azərbaycanımızın bütövlüyü təmin edilsin və mən Sizi öz torpağımda - Ağdamda öz evimdə çay süfrəsinə qonaq edim. Mən Sizin sözlərinizi çox böyük fəxrlə təkrar edirəm: Qarabağ Azərbaycandır!

**Sayad Cəbrayılovadan, Bakı, Azərbaycan**

Hörmətli Cənab Prezident, Müzəffər Ali Baş Komandan!

Torpaqlarımızın işğaldan azad edilməsinə çox sevinirik. Qarabağımızın 30 illik işğalına son qoyuldu. Qazandığınız hərbi-siyasi uğurlarla qürur duyuruq. Allah Sizi, Ordumuzu və millətimizi qorusun. Şəhidlərimizə Allah rəhmət eləsin. Şəhid analarının qarşısında baş əyirəm. Ümummilli Qələbə təbrikləri Sizindir. Qarabağ Azərbaycandır!

**Nilay Cahangirlidən, Beyləqan, Azərbaycan**

Möhtərəm cənab Prezident.

Mənim adım Nilaydır. 10 yaşım var. Mən çox xoşbəxtəm, çünki Sizin komandanlığınız altında torpaqlarımızı geri aldıq. Sizin kimi Prezidentimiz olması ilə, azərbaycanlı olmağım ilə fəxr edirəm. Mən bilirdim ki, Azərbaycan Ordusuna qarşı heç bir ordu qalib gələ bilməz. Mən və ailəm hər zaman Sizə dəstəyik. İnşallah tezliklə bütün həmyerlilərimiz öz ata-baba yurdlarına geri dönərlər. Qələbəmizə görə Sizə təşəkkür edirəm. Sizi və ailənizi də bu qələbə münasibətilə təbrik edirəm.

Eşq olsun Azərbaycan Ordusuna! Yaşasın Ali Baş Komandan!

**Natiq Məmmədovdan, Naftalan, Azərbaycan**

Müzəffər Ali Baş Komandan.

Mən bu məktubu Sizə fəxrlə, dolu ürəklə və göz yaşı ilə yazıram. Şuşa şəhərinin azad edilməsi bu hissləri keçirməyimə səbəb oldu. Öncə Ulu Öndərimizin ruhu qarşısında baş əyirəm. Məhz onun səyi ilə Orduda vahid Ali Komandanlıq yaradıldı, ölkədə hərc-mərcliyə son qoyuldu. Əldə olunmuş uğurlar gələcək böyük Qələbənin təməlini qoydu. Siz də atanız kimi cəsarətli siyasət yürüdərək Ordumuzu gücləndirdiniz, onun siyasətini davam etdirərək Vətən müharibəsində bu uğurlara nail oldunuz.

Allah Sizi heç vaxt Azərbaycan Respublikasının Ali Baş Komandanlığından əskik etməsin! Daim ölkəmizin qoruyucu mələyi olasınız.

**Brilyant Quliyevadan, Şəmkir, Azərbaycan**

Hörmətli Prezidentimiz cənab İlham Əliyev.

Hamımıza məlumdur ki, Azərbaycan qədim dövlətçilik ənənələrinə malik bir ölkədir. Xalqımızın tarixdə üzləşdiyi ən böyük fəlakətlərdən biri XX əsrin 90-cı illərinin əvvəlində mənfur düşmənlərimiz olan ermənilər tərəfindən işğala, soyqırımları və vəhşiliklərə məruz qalmasıdır. İki əsrdir torpaqlarımız yadellilərin işğalına məruz qalmış, zaman-zaman torpaqlarımız işğal olunmuşdu.

Cənab Prezident, bu gün mən özümü xoşbəxt sayıram. Siz müdrik və uzaqgörən siyasətinizlə Azərbaycan xalqına şərəfli bir tarix yaşatdınız. Azərbaycan xalqının bu günü və xoşbəxt gələcəyi naminə yorulmadan çalışdınız. Xalq Sizi sevir və ürəkdən dəstəkləyir.

Hörmətli Prezidentimiz, müzəffər Ali Baş Komandanımız, Sizə Azərbaycanın könüllülərindən ilk şəhid Mövlamov Elçinin ailəsi adından Sizə dərin təşəkkürümüzü bildiririk. Çox sağ olun ki, Siz bu böyük Qələbə sevincini bizə yaşatdınız.

Cənab Prezidentimiz! Biz Mövlamovlar ailəsi hər il şəhidimizin anım gününü böyük üzüntü və kədərlə keçirirdik. Lakin bundan sonra oğlumuzu qürurla ana biləcəyik. Çünki Elçinimizin və bütün şəhidlərimizin qanı Siz və rəşadətli Ordumuz sayəsində yerdə qalmadı. Rəbbim Sizi və şanlı Ordumuzu qorusun.

# Yeni Azərbaycan Partiyası dövlətçiliyimizin və xalqımızın inkişafı naminə misilsiz xidmətlər göstərib



**Milli Məclisin İntizam komissiyasının sədri, YAP İdarə Heyətinin üzvü Eldar İbrahimovun yap.org.az-a müsahibəsi**

***-Eldar müəllim, Yeni Azərbaycan Partiyasının yaradılmasının 28 ili tamam olur. Partiyamızın yaradılması ərəfəsində ölkəmizdə baş verən prosesləri necə xatırlayırsınız?***

-İlk öncə qeyd etmək istəyirəm ki, Yeni Azərbaycan Partiyasının yaranmasının 28-ci ildönümü xalqımızın tarixində çox əlamətdar bir dövrə təsadüf edir. Bu günlər Azərbaycan xalqının qürur mənbəyinə çevrilmiş hadisələr yaşanmışdır. YAP Sədri, ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Azərbaycan Ordusunun zəfərləri, torpaqlarımızın işğaldan azad edilməsi dövlətçilik tariximizə qızıl hərflərlə daxil olmuşdur. Azərbaycan xalqı 30 illik işğala qəhrəmanlıqla son qoyaraq qələbə çaldı. Azərbaycan Ordusu dövlətimizin ərazi bütövlüyünü bərpa etdi və 10 noyabr tarixi Azərbaycan xalqının yaddaşına qələbə günü kimi yazıldı. Bu gün ilk dəfə biz YAP-ın ildönümünü torpaqlarımızın işğaldan azad olunduğu, ərazi bütövlüyünün bərpa edildiyi bir dövrdə qeyd edirik. Ona görə də, qalib ölkənin vətəndaşları olan bütün Azərbaycan xalqı və hər birimiz çox xoşbəxtik ki, bu fərəhli anları yaşayırıq. Bu şanlı tarixi yaratdığına görə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan, partiyamızın Sədri İlham Əliyev cənablarına borcluyuq və ona dərin təşəkkürümüzü bildiririk.

Ölkəmizin siyasi həyatında aparıcı rol oynayan Yeni Azərbaycan Partiyasının yaranması və təşəkkül tapması milli tariximizdə görkəmli yer tutan Ulu Öndər Heydər Əliyevin şərəfli adı ilə bağlıdır. Tarixi zərurətdən yaranmış Yeni Azərbaycan Partiyası elə bir dövrdə formalaşmışdır ki, müstəqilliyimiz, milli varlığımız real təhlükə qarşısında idi. Xalqımızın əsrlərdən bəri ürəyində yaşatdığı azadlıq amallarını beşiyindəcə boğmağa cəhd göstərən qara qüvvələr heç nədən çəkinməyərək ən çirkin vasitələrə belə əl atırdılar.

Belə bir vaxtda müstəqilliyimizin qorunub saxlanması istiqamətində aparılan işlərin daha geniş vüsət alması və həyata keçirilməsinin zəruriliyi Heydər Əliyevin ətrafında birləşən böyük bir siyasi qüvvənin formalaşmasına ehtiyac yaratmışdı. Bu məqsədlə 1992-ci il oktyabrın 16-da Azərbaycanın 91 nəfər tanınmış ziyalısı “Səs” qəzeti vasitəsi ilə Ulu Öndərə “Azərbaycan Sizin sözünüzü gözləyir”, - deyə müraciət etdi. Müraciətdə Heydər Əliyevə xitabən deyilirdi: “Uzun illər əldə etdiyiniz dövlət quruculuğu təcrübələrinizə əsaslanaraq, Siz, qısa müddətdə Azərbaycanda geniş xalq kütləsini əhatə edəcək çox böyük, güclü, nüfuzlu və işlək bir partiya yaratmağa qadirsiniz. Buna görə də Azərbaycanın demək olar ki, bütün bölgələrində aparılan ictimai rəy sörğularının nəticələrinə və bizim təşkilat komitəsinə daxil olan minlərlə şifahi və yazılı vətəndaş təkliflərinə əsaslanaraq belə bir qənaətə gəlirik ki, yaratmaq istədiyimiz Yeni Azərbaycan Partiyasına bu gün rəhbərlik etməyə qadir olan yeganə mütləq lider Siz ola bilərsiniz və yalnız bu halda yaranmaqda olan partiya öz qarşısına qoyduğu məqsədə çatar, respublikanın bütün zümrələrindən olan xalq kütləsini öz ətrafında birləşdirərək Azərbaycanın siyasi, iqtisadi həyatında mövcud olan boşluğu dolduracaq, dövlət quruculuğu işlərində öz layiqli töhfəsini verə biləcək. Əminik ki, Yeni Azərbaycan Partiyası müdrik ağsaqqalımız Heydər Əliyevin ətrafında birləşərək dərin zəkalı, təmiz əxlaqlı, yüksək mədəniyyətli, müstəqil düşüncəli, milli qürurlu peşəkar insanların siyasi partiyasına çevriləcəkdir”.

***-Yeni Azərbaycan Partiyasının yaradılmasına o vaxtkı hakimiyyət hər vəchlə mane olmağa çalışırdı. Bu məqsədlə hakimiyyət tərəfindən müxtəlif təxribatlar da törədildi...***

-Görkəmli dövlət xadimi Azərbaycan ziyalılarının müraciətinə oktyabrın 24-də “Yeni müstəqil Azərbaycan uğrunda” çağırışı ilə başlayan cavab verdi. Heydər Əliyev “91-lər”in müraciətinə cavabında Yeni Azərbaycan Partiyasının yaradılmasının obyektiv zərurətdən doğduğunu vurğulayaraq onun fəaliyyətində fəal iştirak etməyə hazır olduğunu bəyan etdi. Onun ölkədəki ictimai-siyasi vəziyyəti hərtərəfli əks etdirən və AXC-Müsavat hakimiyyətinin əsl mahiyyətini açıb göstərən cavab məktubu Azərbaycanda böyük əks-səda doğurdu. Heydər Əliyevin bu cavabından o dövrkü iqtidar təşvişə düşdü və oktyabrın 24-də Naxçıvanda dövlət çevrilişinə cəhd göstərildi. Belə bir vaxtda Heydər Əliyevi sevən insanlar ayağa qalxıb, hamı bir nəfər kimi onu müdafiə etdi. O dövrkü hadisələr barədə Ulu Öndər Heydər Əliyev belə demişdir: “Biz Naxçıvanda ağır şəraitdə yaşadığımız zaman - bəziləri bunu da bizə çox gördülər, - Naxçıvanda dövlət çevrilişi etmək istədilər. Xalq Cəbhəsinin böyük bir silahlı dəstəsi Daxili İşlər Nazirliyini zəbt etdi. Onların bəzi nümayəndələri televiziya ilə xalqa müraciət edib bizi devirmək çağırışları ilə çıxış etdilər. Ancaq heç bir şey edə bilmədilər. Çünki xalq bizimlə idi.”

Bütün təzyiqlərə baxmayaraq, tez bir zamanda ölkənin hər yerində yeni partiyanın təsis konfransına hazırlıq işlərinə başlanıldı. Əfsuslar olsun ki, həmin dövrdə Bakıda Yeni Azərbaycan Partiyasının təsis konfransını keçirmək mümkün olmadı. Çünki, AXC-Müsavat hakimiyyəti Heydər Əliyevin rəhbərliyi ilə yaradılacaq partiyadan qorxur və onun təsis olunmasına çox böyük maneələr törədirdi. Buna görə də partiyanın təsis konfransı 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində keçirildi.

Konfransda Azərbaycanın müxtəlif regionlarını təmsil edən təşəbbüs qruplarının 550 nəfərdən artıq nümayəndəsi iştirak edirdi. Tədbir şaxtalı bir gündə Naxçıvan Dram Teatrının binasında keçirildi. 4 saat davam edən konfransda partiyanın Proqram və Nizamnaməsi qəbul olundu və Heydər Əlirza oğlu Əliyev partiyanın Sədri seçildi. Yeni yaranmış partiyanın proqramında bu siyasi qurumun əsas məqsədləri barədə belə deyilirdi: “Yeni Azərbaycan Partiyası dövlət müstəqilliyinin möhkəmləndirilməsi, ərazi bütövlüyü, sivilizasiyalı hüquqi demokratik dövlətin yaradılması, möhkəm əmin-amanlıq və ictimai həmrəylik, sabit və sosial istiqamətli iqtisadiyyat yaratmaq, irqindən, milliyyətindən, dinindən, dilindən asılı olmayaraq şəxsiyyətin hüquq və azadlıqlarının hərtərəfli inkişafı və etibarlı müdafiəsini təmin etmək məqsədilə geniş demokratik islahatların həyata keçirilməsi uğrunda çıxış edən parlament tipli siyasi partiyadır”.

***-Yeni Azərbaycan Partiyası hansı zərurətdən yarandı?***

-Ulu ÖndərHeydər Əliyev YAP-ın yarandığı dövrü belə xarakterizə edirdi: “Yeni Azərbaycan Partiyası o vaxtkı mövcud vəziyyətdə bütün Azərbaycan xalqının mənafelərinə xidmət etmək üçün və xalqın o ağır dövründə ölkəmizin qarşısında duran məsələlərin həll edilməsi üçün zamanın tələblərinə uyğun olaraq zərurətdən yaranmış bir partiyadır”.

Mövcud olduğu dövrdə YAP qəbul etdiyi Proqram və Nizamnaməyə uyğun olaraq dövlətçiliyimizin və xalqımızın inkişafı naminə misilsiz xidmətlər göstərmişdir. Ötən 28 il ərzində Yeni Azərbaycan Partiyası sıralarında siyasətçilərin yeni nəsli yetişmişdir. Bu nəslin ən parlaq nümayəndəsi, dərin fəlsəfi və milli köklərə malik Heydər Əliyev siyasi məktəbinin yetirməsi cənab İlham Əliyev öz çoxşaxəli fəaliyyəti sayəsində geniş xalq kütləsinin dərin rəğbətini qazanmışdır. 2000-ci il parlament seçkilərində İlham Əliyev YAP-ın seçki kampaniyasına uğurla rəhbərlik etdi və bu partiya parlamentdə yerlərin böyük əksəriyyətini qazandı. Partiyanın II qurultayının qətnaməsində bu barədə belə deyilirdi: “Parlament seçkiləri kampaniyası gedişində yüz minlərlə seçici qarşısında İlham Əliyevin qətiyyətli, məntiqi, praqmatik çıxışları xalqa onu Heydər Əliyev siyasətinin layiqli davamçısı kimi daha yaxından tanıtmışdır”.

Partiyanın II qurultayında İlham Əliyev partiya Sədrinin I müavini seçildi. 2003-cü il prezident seçkiləri ərəfəsində isə Ulu Öndər Heydər Əliyev xalqa müraciətində cənab İlham Əliyevi yeni mərhələdə ölkəyə rəhbərlik etməyə qadir şəxsiyyət kimi gördüyünü bildirmişdir: “Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm”.

2003-cü il prezident seçkilərində Yeni Azərbaycan Partiyası çox mühüm bir siyasi qələbə qazandı. Bu seçkilərdə partiya Heydər Əliyev ideyalarına sarsılmaz sədaqət nümunəsi, ən başlıcası isə qələbəyə haqqı olduğunu bütün dünyaya nümayiş etdirdi. Partiyanın namizədi cənab İlham Əliyev ölkə başçısı seçildi.

2003-cü il oktyabrın 31-də keçirilən andiçmə mərasimində cənab İlham Əliyev Ulu Öndər Heydər Əliyevin dövlətçilik irsinə sədaqət andı içərək demişdir: “Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm”.

***-Bu gün Yeni Azərbaycan Partiyası yeni inkişaf mərhələsini yaşayır. Bu barədə də fikirlərinizi bilmək istərdik...***

-Bu gün Heydər Əliyev mənəvi-siyasi irsinin ən layiqli davamçısı, dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan çağdaş tarixinin yeni şanlı səhifələri yazılır. Cənab İlham Əliyev bütün sahələrdə Heydər Əliyev ideyalarının layiqli davamçısı olduğunu hələ Prezident seçilməmişdən əvvəl də Ulu Öndərimizin müəllifi olduğu yeni neft strategiyasının həyata keçirilməsinə, Milli Məclisin deputatı və Azərbaycan parlamentinin AŞPA-dakı nümayəndə heyətinin rəhbəri kimi beynəlxalq təşkilatlarla əlaqələrimizin inkişafına, Azərbaycan idmanının yüksəlişinə verdiyi töhfələrlə sübuta yetirmişdir.

Əlbəttə, bu uğurlar heç də asan əldə olunmamış, çox böyük səylər və uzaqgörən siyasət nəticəsində qazanılmışdır. Belə ki, AXC-Müsavat cütlüyünün ölkəyə rəhbərlik etdiyi qısa müddət ərzində respublikamızı siyasi, iqtisadi və sosial baxımdan çox acınacaqlı vəziyyətə qoymuşdu. Bu barədə 2005-ci ildə keçirilən partiyamızın III qurultayında ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyev belə demişdi: “Yeni Azərbaycan Partiyası 1992-ci ildə çətin şəraitdə .... müxalifət partiyası kimi yaranmışdır. Ancaq indiki bəzi müxalifət nümayəndələrindən fərqli olaraq, Yeni Azərbaycan Partiyası müxalifətdə olan dövrdə heç vaxt Azərbaycan dövlətçiliyinə, Azərbaycanın milli maraqlarına müxalifətdə olmamışdır. O vaxtkı iqtidara müxalifətdə olmuşdur və təkcə biz yox, bütün Azərbaycan xalqı o vaxtkı iqtidara müxalifətdə idi. Çünki onların yarıtmaz fəaliyyəti nəticəsində ölkədə anarxiya, hərc-mərclik, total böhran hökm sürürdü. Demək olar ki, ölkəni uçurum kənarına gətirib çıxarmışdılar. Ölkədə gedən proseslər Azərbaycanın gələcəyini sual altında qoymuşdu və ölkə parçalanma ərəfəsində idi. Azərbaycan xalqının müdrikliyi və xalqımızın Ümummilli Lideri Heydər Əliyevin siyasi təcrübəsi, biliyi, cəsarəti nəticəsində ölkəmiz o çətin şəraitdən şərəflə çıxdı, Azərbaycan özünü bütün təhlükələrdən qoruya bildi”.

Bunun nəticəsidir ki, ötən illər ərzində partiyanın keçdiyi şərəfli yol, bu gün sağlam qüvvələrin partiyaya axını belə deməyə əsas verir ki, Heydər Əliyev ideyalarından güc alan Yeni Azərbaycan Partiyası ölkə qarşısında duran problemləri həll etməyə, xalqımızı xoşbəxt gələcəyə aparmağa qadir, siyasi həyatda özünü təsdiqləmiş monolit bir partiyadır. Partiyanın yaradıcısı, Ulu Öndər Heydər Əliyevin təbirincə desək: “Yeni Azərbaycan Partiyası dünənin, bugünün və gələcəyin partiyasıdır”.

Biz fəxr edirik ki, Ümummilli Liderimizin dediyi bu fikir öz təsdiqini real həyatda əyani surətdə tapır. Bu günlərdə Vətən müharibəsində Yeni Azərbaycan Partiyasının parlaq zəkalı lideri, ölkəmizin Prezidenti və Ali Baş Komandanı İlham Əliyev cənablarının möhtəşəm rəhbərliyi ilə Müzəffər Azərbaycan Ordusunun Qarabağın 30 il ərzində mənfur qonşumuz Ermənistanın işğalında olan ərazilərimizin azad edilməsi, respublikamızın ərazi bütövlüyünün bərpa edilməsi buna sübutdur. 30 ildən çox idi ki Azərbaycan xalqı bu günü gözləyirdi və həmin gün gəldi. Bu şanlı qələbəni bizə bəxş edən isə partiyamızın lideri cənab İlham Əliyevdir. Məhz buna görə bütün Azərbaycan xalqı kimi, partiyamızın üzvləri də böyük fəxrlə deyirik: “Yaşasın Yeni Azərbaycan Partiyasının Sədri, Azərbaycan Respublikasının Prezidenti və Ali Baş Komandanı İlham Əliyev”.

# Vladimir Putin Dağlıq Qarabağın Azərbaycan ərazisi olduğunu təsdiq etdi

***Azərbaycan ictimaiyyəti tərəfindən birmənalı qarşılanmayan və bəzi təhdid ritorikası hiss olunan Rusiya prezidenti Vladimir Putinin Azərbaycan-Ermənistan münaqişəsinin həlli ilə bağlı imzalanmış sənəd barədə Rusiya televiziyasına verdiyi müsahibə əsasən erməni cəmiyyəti və erməni dairələrinə ünvanlanmış mesajlardan ibarət idi.***

Əvvələ Rusiyaya qarşı şıltaqlıq dən erməni lobbisi, erməni cəmiyyətləri və ictimaiyyətinə şəxsən Rusiya prezidentinin birbaşa, şifrəsiz, açıq mətnlə müraciət etmək zorunda qaldığını göstərir. Və bir növ izahat-hesabat çıxışı edərək, konkret qəti mesajını çatdırdı. Çünki Rusiyanın istəyi lazımi dairələrə lazımi kanallarla çatdırılmışdı. Qısaca, bu mesajları - Vladimir Putinin dediklərini aşağıdakı kimi punklaşdırmaq olar:

- Rusiya öz müttəfiqi olan Ermənistana kifayət qədər hərbi-texniki yardım göstərib və erməni rəhbərliyi buna görə həmişə minnətdarlığını bildirib.

- Atəşkəsin müəyyən olunmuş rtlərlə dayandırılmasını müharibənin gedişində Rusiya Ermənistana təklif edərkən erməni tərəfi döyüşməyi üstün tutub.

- Hazırda Rusiyanın istəmədiyi hakimiyyət dəyişikliyi ermənilər üçün intihara bərabərdir.

- Paşinyanın satqın olmadığını erməni cəmiyyətinə çatdıraraq hələ onunla işləmək istədiyini bildirdi və heç bir halda imzalanmış sənədin imtinasının yol verilməz olduğu mesajını verdi.

- Rusiya xilaskarlıq missiyası ilə Qarabağa gəlib onları ölümdən qurtarıb və status məsələsi hələ müzakirə mövzusu deyil.

Eyni zamanda Rusiya Prezidenti Ermənistan cəmiyyətində yaranmış anti-rus rəyinin üstünlük təşkil etdiyini dəqiq bildiyi üçün məhz ictimaiyyətə və aidiyyəti dairələrə Sorosun gətirdiyi bəlanın cəzasını çəkməli olduqlarını bildirərək Rusiyanın xilaskar missiyasına möhtac olduqlarını başa salır. Yəni fakt qarşısında seçim yoxdur və Rusiyaya etimad yeganə seçimdir .

Ermənistanı həm ərazi olaraq, həm siyasi hakimiyyət olaraq Qərbə qətiyyən güzəştə getməyə razı olmayan Rusiya Prezidenti öz müsahibəsində bir neçə dəfə Dağlıq Qarabağın müstəqilliyinin heç Ermənistanın tanımadığını, bu ərazinin Azərbaycana aid olduğunu, Beynəlxalq hüququn bunu təsdiq etdiyini bildirən Putin eyni zamanda Azərbaycan ictimaiyyətinin narahatlığına səbəb olan və Azərbaycan tərəfinin Rusiya sülhməramlıları ilə hörmətlə rəftar etməsi üçün Abxaziya, Acarıstan və Krım kimi dünyada Rusiyadan başqa heç bir dövlətin tanımadığı saxta qurumların da adını çəkməklə təhdid etməkdən də yan keçmir.

Və status məsələsinin xatırlatmaqla erməni tərəfdə hansısa məchul ümid yaratmaqla Azərbaycan tərəfə də hədələyici mesaj verir. Yəni Rusiya bu məsələdə birinci məqsədinə qismən nail olduqdan sonra növbəti mərhələlərdə oyuna Minsk qrupunun digər həmsədrlərini qatmaqla oyunun istiqamətini müəyyən qədər dəyişmək şansını əlində saxlayır. Bu da Azərbaycan-Türkiyə faktoruna qarşı Rusiyanın qarantiyası kimi əlində saxladığı "kozır"dır.

Bütün bu oyunlara rəğmən Rusiya və Ermənistan öz imzaları ilə üzərinə götürdükləri öhdəlikləri yerinə yetirmək zorundadırlar. İşğal faktı və ərazilərin boşaldılması öhdəliyi Azərbaycanın bundan sonrakı siyasi, hərbi və diplomatik üstünlüyünü ciddi və birmənalı şəkildə təmin etdiyi kimi, Beynəlxalq Hüquq və Beynəlxalq məhkəmə üstünlüyü və imkanını rəsmiləşdirib təsdiq etdi. Bundan sonrakı, yeni hərbi əməliyyatlar istənilən halda Ermənistanın təkcə Qarabağda məhvinə deyil, İrəvanın vurulmasına heç bir məhdudiyyət qoymur.

Sadəcə olaraq zaman məsələsində və Rusiyanın sülhməramlı missiyası öhdəliklərinin dəqiqliklə yerinə yetirilməsini bacarıb-bacarmayacağını diqqətlə izləyib münasibət bildirmək qalır. Əgər Rusiya sülhməramlıları üzərinə götürdüyü öhdəlikləri yerinə yetirə bilməyəcəklərsə və meşələrimizin yandırılmasına şərait yaradacaqlarsa Azərbaycan və Türk ordusu bu missiyanı öz üzərinə götürə bilər.

Xatırlatmaq yerinə düşər ki, Rusiya sülhməramlılarının missiyası təkcə Erməniləri Xankəndinə qaytarmaqdan ibarət deyil və Gəncəni ballistik raketlə vurmaq əmrini şəxsən özünün verdiyini (?!) etiraf edən saxta qurumun cinayətkar başçısı Arkadi Araikyanla rəsmi görüş bu missiyanın bitərəf və humanitar fəaliyyətinə kölgə salır.

Ancaq ümumi götürdükdə dünyanın bütün hərbi və siyasi ekspertlərinin birmənalı rəyinə görə, bu münaqişənin birmənalı və qeyd-şərtsiz udan tərəfi Azərbaycan və onun Ali Baş Komandanı Prezident İlham Əliyevdir. İmzalanmış sənəd Azərbaycanın hərbi-siyasi və diplomatik qələbəsinin hüquqi rəsmiləşdirilməsi olduğu kimi Rusiya Prezidenti Vladimir Putunin də rus televiziyasına 17 noyabrda verdiyi müsahibə həmin sənədin Ermənistanın işğal faktının və Azərbaycanın ərazi bütövlüyünün Rusiyanın birinci şəxsinin timsalında bir daha təsdiqi idi. Eyni zamanda Vladimir Putin Türkiyə ilə Qafqazda əməkdaşlıq edəcəklərini bildirməklə NATO-nun ən güclü ikinci hərbi qüvvəsi ilə NATO-dan kənar əməkdaşlıqla bu hərbi blokun Rusiyaya qarşı gücünü zəiflətmiş olur. Və bu reallığı faktiki əməkdaşlıq kimi qiymətləndirir.

QARABAĞ MƏSƏLƏSİNİN REAL HƏLLİ DEMƏK OLAR Kİ, ARTIQ ELAN OLUNMUŞDUR. AZƏRBAYCAN PREZİDENTİ CƏNAB İLHAM ƏLİYEV QƏTİİ SURƏTDƏ RƏSMİ OLARAQ BİLDİRİB Kİ, QARABAĞDA HEÇ BİR XUSUSİ STATUSDAN SÖHBƏT GEDƏ BİLMƏZ VƏ 1990-92- Cİ İLƏ QƏDƏR ORADA YAŞAYAN ERMƏNİLƏR AZƏRBAYCAN VƏTƏNDAŞI OLARAQ QAYIDIB XANKƏNDİDƏ YAŞAYA BİLƏRLƏR. AZƏRBAYCAN ƏRAZİSİNDƏ ERMƏNİSTANA MƏXSUS HƏR HANSI HƏRBİ VƏ MÜLKİ OBYEKT VƏ SUBYEKT OLA BİLMƏZ!

***Resurs Analitik İnformasiya Mərkəzi***

# Rusiya eksperti: "Paşinyanın siyasəti Ermənistanı çökdürdü"



***"Erməni hərbi komandanlığı hərbi əməliyyatların Azərbaycanın şərtləri ilə təcili olaraq başa çatdırılmalı olduğunu izah etdi. Bu, həmişə tərəflərdən biri məğlub olduqda və digəri qəti bir hərbi qələbə qazandıqda olur". Milli Müdafiə jurnalının baş redaktoru, hərbi ekspert İqor Korotçenko bunu Pravda.ru-nun baş redaktoru İnna Novikovanın Ermənistanda baş verənlər haqda suallarını cavablandırarkən deyib. Müsahibəni oxucularımıza təqdim edirik.***

**(Əvvəli burada: https://sia.az-/az/news/politics/838008.html)**

Qarabağ uğrunda müharibə bitdi. Ermənistan müqavimət potensialını tükəndirib. Hərbi komandanlıq bunu açıq şəkildə etiraf etdi və hər şərtlə barışığa çağırdı. Rus sülhməramlıları bölgəyə daxil oldu. Müharibə dayandı və bununla da minlərlə insanın ölümünün qarşısı alındı. Nəhayət, itkiləri hesablamaq, səbəbləri təhlil etmək və gələcək üçün nəticə çıxarmaq zamanı gəldi. Daşları toplamaq vaxtıdır. Ancaq ermənilər onları hamının üstünə atmağa davam edir. Yerevanda- "poqromlar" və linç çağırışları davam edir. Ancaq Paşinyan getmək istəmir və bunun son olmadığına inandırmağa çalışır. O və ya erməni xalqı öz vəziyyətlərini tamamilə çökdürəcəklərmi? Yoxsa bu xalqın ağlı oyanacaq? ...

- İqor, aydındır ki, Paşinyan müharibəni uduzdu. Azərbaycanın maliyyə vəziyyəti Ermənistandan daha yaxşıdır.

- 1-ci müharibənin bitməsindən təxminən 30 il ötür. 30 il ərzində İsrail inkişaf etmiş bir dövlətə və beynəlxalq siyasətdə ciddi bir faktora çevrilməyi bacardı. Onsuz da heç bir beynəlxalq problem həll olunmur.

Düşmən ölkələrin əhatəsində kiçik bir dövlət. Yalnız qum var idi və praktik olaraq başqa bir şey yox idi. İnsanlar özləri dünyanın hər yerindən buraya gəldilər və sıfırdan bir ölkə qurdular, əkinçilik, sənaye, elm qurdular ... Ermənistan isə nə özündə, nə də Qarabağda əhəmiyyətli bir iş görmədi...

- Hər halda İsrail istisnadır. Dünyada yalnız müsbət nümunələr yoxdur, mənfilər də var. Məsələn, deməli olar ki, bütün postsovet ölkələri mənfiyə doğru getdilər. 30 ildir Ukrayna ən zəngin ölkədən dilənçiyə çevrilib. Sovet İttifaqının gözəl bir mirası qaldı, ancaq bütün ehtiyatlar müvəffəqiyyətlə oğurlandı, yaxşı bir şey edilmədi.

- Bu, həqiqətən nəyi etməməyin başqa bir canlı nümunəsidir. Bu vəziyyətdə Ermənistanı İsrail ilə müqayisə edirəm, çünki coğrafiya və geosiyasi siyasət bir-birinə oxşayır. İsrail tamamilə düşmən bir mühitlə əhatə olunmuşdur. Ermənistanın ətrafında da düşmən bir mühit mövcuddur. Yəhudi və erməni diasporlarının çox böyük olması və bir çox ölkədə yerləşmələri ilə də böyük bir oxşarlıq var. Avropada və ABŞ-da xüsusilə çox sayda və güclüdürlər, təmsilçiləri elitlər arasındadır və siyasi proseslərə təsir göstərirlər.

İsrailə diaspora hər cəhətdən kömək etdi. Bir çox insan ora gələrək kiçik İsraili çiçəklənən bir ölkəyə və dünyanın əsas geosiyasi oyunçusuna çevirdi. Başqa bir vəziyyətdə, ilk Qarabağ müharibəsində qalib gələn Ermənistanın sonra bütün qazandıqlarını necə itirdiyini gördük. Çünki 30 il ərzində nə bu ölkənin səlahiyyətliləri, nə də diaspora iqtisadiyyatın inkişafı üçün praktik olaraq heç bir şey etmədilər və düşmən bir mühitdə müdafiə qabiliyyətini gücləndirmək üçün çox şey etmədilər.

### Paşinyan Ermənistanı uçurumdan düşürəcək, yoxsa xilas edəcək?

Bu, ilk növbədə, diasporanın vəzifəsidir. Söhbət onun prioritetlərini seçməkdən gedir. Bu barədə çox danışa bilərsiniz, amma həqiqətlər tamamilə aydındır. Təəssüf ki, Paşinyanın siyasəti ölkəni çökdürdü. Özü dedi: "Ermənistan yıxıldı, lakin uçuruma düşmədi".

Ermənistanın nə qədər dərindən yıxıldığını burada qiymətləndirməyi düşünmürəm, amma tezliklə Paşinyan özü uçuruma yıxıla bilər. İnsanlar ona nifrət edir və onu axtarırlar. Hətta İrəvan küçələrində linç məhkəmələrini də görürük. Bu, əlbətdə, məni də təsirləndirdi.

Ermənistan parlamentinin spikeri avtomobildən çıxarılarkən və liviyalıların Qəzzafi ilə etdiklərini onun üstündə etdikləri formada siyasi problemlərin həlli metodlarının tərəfdarı deyiləm.

Praktiki olaraq, bu, birbaşa efirdə icra olunan bir qətl cəhdi idi. O, yalnız möcüzə sayəsində sağ qaldı, ölümcül döyüldüyünə baxmayaraq. Bu problem həll etmə üsulu deyil.

Ermənistanın çox sayda gənc vətəndaşı nümayişlərə çıxdı, binaları ələ keçirdi və dağıtdı. Etirazçıların çoxu 25-35 yaş arası gənclərdir.

Niyə Qarabağda cəbhədə deyillər? Bəlkə də bu 10 min insan müharibədə əsas rol oynaya bilərdi, dönüş nöqtəsi gələcəkdi. Erməni cəmiyyəti bu suallara cavab verəcəkmi, bilmirəm. Cavab olmasa, vəziyyət daha da pisləşəcəkdir.

### Rusiyanın rolu

Rusiya sülhməramlıları döyüşlərin yenidən alovlanmamasına nəzarət edirlər. Sülhməramlılarımızı bölgəyə gətiririk, onlar sərhəd xətti boyunca dayanacaqlar. Bu, hər iki tərəfdə itiriləcək minlərlə insanın həyatını xilas etdi.

Eyni zamanda, erməni tərəfdən də qınaqlar gəlir. Ermənistan mediası vəziyyətin qərəzli qiymətləndirilməsindən danışır.

Ancaq bu fonda, hətta təkcə Paşinyan tərəfindən deyil, Ermənistanın müdafiə naziri və Ermənistan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi tərəfindən də açıqlamalar verildi. Özləri müqavimət potensialının tükəndiyini etiraf etdilər.

Müharibə bir neçə gün də davam etsəydi Qarabağın inzibati mərkəzi- azərbaycanlılar və ermənilərin dediyi kimi Xankəndi ya da Stepanakert- dağılacaqdı. Bundan əlavə, erməni qrupu parçalanmış olardı. Bir "kotyol" olardı və daha minlərlə insan ölə bilərdi. Erməni hərbi komandanlığı Paşinyana niyə üz tutduqlarını, hərbi əməliyyatların Azərbaycanın şərtləri ilə təcili olaraq başa çatdırılmalı olduğunu izah etdi. Əslində, bu həmişə tərəflərdən biri məğlub olduqda və digəri qəti bir hərbi qələbə qazandıqda olur. Bu yaxınlarda demişdik ki, o zaman Rusiyanın sülhməramlı səyləri tələb olunacaq, tərəflər danışıqlar masasına oturacaq və siyasi müqavilələr paketini imzalayacaqlar. Bu da oldu.

***davamı olacaq***

***Tərcümə: Elçin Bayramlı***

# "YAP dövlət və xalq üçün yaranan partiyadır"

## *Kamil Mirzəyev: "Azərbaycan Partiyası böyük, şanlı yol keçib, üzərinə düşən missiyanı ləyaqətlə yerinə yetirir"*

***- Kamil müəllim, Ulu Öndər Heydər Əliyevin yaradıcısı olduğu, hazırda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyasının yaranmasının 28 illiyini İkinci Qarabağ müharibəsinin Şanlı qələbəsi əldə etdiyimiz bir tarixi zamanda qeyd edirik.***

- Bəli, bu günümüzlə qürur duyuruq. Yeni Azərbaycan Partiyasının yaranmasının 28-ci ildönümü xalqımızın tarixində çox əlamətdar bir dövrə təsadüf edir. Bəli, bu gün məhz Azərbaycan Prezidentimiz, Ali Baş Komandanımız İlham Əliyv cənablarının rəhbərliyi ilə rəşadətli Azərbaycan əsgəri döyüşlərdə qəhrəmancasına döyüşə-döyüşə bərkiyərək Güclü Ordumuzun gücü ilə Azərbaycan tarixinə qələbələr yazdı. Azərbaycan Prezidenti, Ali Baş Komandan, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin dünyanın aparıcı mediasına verdiyi 30-a yaxın müsahibə dünya informasiya məkanında ölkəmizə qarşı olan hücumları darmadağın etdi. Bu Prezident İlham Əliyevin son 17 ildə həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası torpaqlarımızın işğaldan azad olunmasının ən başlıca səbəbidir. Ən nəhayət, əldə olunan qələbə həm də dövlət-xalq-ordu birliyinin bəhrəsidir. Və bu gün Yeni Azərbaycan Partiyası da məhz xalqın birliyinin partiyasıdır. Ölkəmizin siyasi həyatında aparıcı rol oynayan Yeni Azərbaycan Partiyasının yaranması və təşəkkül tapması milli tariximizdə görkəmli yer tutan Ulu Öndər Heydər Əliyevin şərəfli adı ilə bağlıdır. Yeni Azərbaycan Partiyasının tarixi Azərbaycanın müstəqillik dövrünün tarixi ilə, demək olar ki, üst-üstə düşür. Azərbaycan özünün müstəqilliyini 1991-ci il, oktyabrın 18-də bəyan edib. YAP isə 1992-ci il, noyabrın 21-də yaradılıb. Həmin illər Azərbaycan üçün ən ağır və məsuliyyətli dövr idi. Həmin vaxtlar dövlət müstəqilliyin qorunub saxlanması üçün qətiyyətli bir şəxsin ölkə rəhbərliyinə gətirilməsi zəruriyyəti yaranmışdı. Bu mənada, YAP-ın yaranması tarixi zərurət kimi qeyd olunmalıdır. Yəni, YAP-ın yaranmasını tarixi zərurət və Azərbaycan xalqının taleyi diqtə edirdi. 1992-ci ildə xaos, anarxiya vəziyyətində olan bir ölkəyə xalqı bu çətin vəziyyətdən çıxarmaq bacarığı olan güclü bir liderin ölkə rəhbərliyə gətirilməsi əsas şərt idi. Azərbaycan xalqı bu məsələdə Ulu Öndər Heydər Əliyev fenomeninin üzərində dayandı. Çünki xalq nicat yolunu yalnız Heydər Əliyevin hakimiyyətə tarixi qayıdışında görürdü. Elə həmin vaxtlar 91 nəfər Azərbaycan ziyalısı Naxçıvana, Ulu Öndər Heydər Əliyevə müraciət ünvanlamışdı. Bu müraciət bütövlükdə Azərbaycan xalqının çağırış ifadəsi idi. Həmin müraciətdə Heydər Əliyevin yeni yaradılacaq partiyaya - Yeni Azərbaycan Partiyasına rəhbərlik etməsi xahiş edilirdi. Bu, heç də asan bir məsələ deyildi. Çünki Azərbaycanda köklü islahatlar aparılmalı, xalqın pozulmuş, tapdalanmış hüquqları bərpa edilməli və güclü vətəndaş cəmiyyəti qurulmalı idi. Bütün sahələrin inkişafı istiqamətinə çox ciddi addımlar atılmalı, dövlətçiliyin bərpası və qorunub saxlanması yükünü öhdəsinə götürməyi bacaran qətiyyətli bir fenomenal şəxsiyyətə böyük ehtiyac var idi. Dövlətçilik məfkurəsini gücləndirmək, milli dövlətçilik ideologiyasını işləyib hazırlamaq və onu reallaşdırmaq həmin dövrlər üçün güclü siyasi iradə, bacarıq tələb edirdi. Bunların öhdəsindən layiqincə gələ biləcək şəxs Heydər Əliyev ola bilərdi. Ona görə də 1992-ci ilin noyabrın 21-də YAP-ın təsis konfransının keçirilməsi təsadüfi hadisə deyildi, bu xalqın istəyi ilə yaradılan bir siyasi partiya idi.



**Müsahibimiz YAP Biləsuvar rayon təşkilatının sədri Kamil Mirzəyevdir:**

***- Həmin dövrlərdə YAP-ın yaradılması üçün çox manelər törədilirdi. Lakin xalqın təkidli tələbi bütün bu maneləri aradan qaldırdı...***

- Əlbəttə, o dövrlər YAP-ın yaradılması üçün manelər törədilirdi. Həmin vaxtlar xalqımızın dahi oğlu, tanınmış dövlət xadimi Ümummilli Lider Heydər Əliyev o dövrdə blokada şəraitində olan Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədri idi. Ulu Öndər ziyalıların müraciətini qəbul etsə də, Onun Bakıya gəlməsinə o zamankı səriştəsiz şəxslərin rəhbərlik etdiyi hakimiyyətin maneələr yaratması ucbatından, partiyanın yaradılmasını istəyən insanların bir hissəsi Naxçıvana gedərək, partiyanın təsis konfransını orada keçirməyə nail oldular. Yenə də xalqın Heydər Əliyevə olan inanmını bəzi qüvvələr sarsıda bilmədi. Naxçıvanda yaradılan YAP-ın təsis konfransında Ümummilli Lider Heydər Əliyev yekdilliklə yeni yaradılan partiyanın Sədri seçildi. Deyərdim ki, Azərbaycan xalqı artıq nicat yoluna qədəm qoydu. Çünki qısa zaman kəsiyində YAP siyasi hakimiyyətə gəldi. Bunun əsas qayəsi inam və etibar idi. YAP öz yaranışı ilə Azərbaycanın ictimai-siyasi fikir, siyasi fəaliyyət və mübarizələr tarixinə yeni bir keyfiyyət halı gətirdi. Qarşıda ölkəni çətin, böhran vəziyyətindən çıxarmaq kimi ciddi məqsəd var idi. Bu partiya Azərbaycanın çağdaş dövr tarixində ilk konstruktiv müxalifət partiyası nümunəsini göstərdi. Onun siyasi nüfuzunun, siyasi gücünün və populyarlığının bir səbəbi də budur. Dahi şəxsiyyət Heydər Əliyevin 1993-cü il prezident seçkilərdə xalqın səsini qazandı. Bundan sonra Azərbaycan xalqı artıq tam əmin oldu ki, hakimiyyət sükanı etibarlı əllərdədir. Heydər Əliyevin hakimiyyətə tarixi qayıdışı və qətiyyətli addımları nəticəsində çox keçmədi ki, ölkə böhran vəziyyətindən çıxarıldı. Bütün sahələrin inkişafına xüsusi diqqət yetirildi. Xalqın sabahına hesablanmış mütərəqqi siyasət yeridildi. YAP Azərbaycan dövlətçiliyinin, onun müstəqilliyinin, bu gününün və sabahının qarantı deməkdir. Ona görə də, bu gün Yeni Azərbaycan Partiyasının keçdiyi yola nəzər salanda, görürük ki, inanılmaz dərəcədəki inkişaf hansı keşməkeşlərdən keçib. Bu, bir daha onu deməyə əsas verir ki, xalq öz seçimində yanılmadı. Xalqın düzgün seçimi yeni və qüdrətli Azərbaycanın yaranması ilə nəticələndi. Ona görə ki, YAP üzərinə düşən missiyanı uğurla həyata keçirdi və bu gün də bu inkişaf göz önündədir.

***- Ümummilli Lider Heydər Əliyevin Azərbaycan xalqının firavan gələcəyinə hesablanan mütərəqqi siyasi kursu ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla həyata keçirilir***

- Bəli, bu siyasi kursu davam etdirmək asan məsələ deyil. Çünki burda Heydər Əliyev ideologiyası, məfkurəsi var. Bu ideologiya, məfkurə və dövlətçilik fəlsəfəsi çox zəngindi. Bu siyasi kursu layiqincə davam etdirmək böyük məsuliyyətdir. Bu gün birmənalı şəkildə demək olar ki, ölkə Prezidenti İlham Əliyev bu kursun ən layiqli davamçısıdır. Ona görə də bu gün Yeni Azərbaycan Partiyası ümumxalq partiyasına çevrilib.

Əlbəttə, bunun başlıca səbəblərindən biri də birbaşa dövlət başçımız, partiyamızın Sədri İlham Əliyevin xalq arasındakı böyük nüfuzudur. Çünki partiyamızın Sədrinin şəxsi keyfiyyəti, Onun Heydər Əliyev ideyalarına sonsuz sədaqəti, Azərbaycan dövlətinin siyasi və iqtisadi nüfuzunun artmasına yönələn fəaliyyəti partiyamızın xalq qarşısındakı hörmət və inamını artırır. Bizi sevindirən, fərəhləndirən amil də budur ki, artıq hər bir YAP üzvü bilavasitə Heydər Əliyev ideyalarına, bu ideyaların inkiaf etməsinə sədaqətlə xidmət edir. Bu sədaqət hazırda Prezident İlham Əliyev siyasəti konteksitndə bütün məziyyətləri ilə sübuta yetirilməkdədir.

Bu gün hər bir azərbaycanlı əmindir ki, dövlət başçısının "Bizim hamımızın məqsədi ondan ibarət olmalıdır ki, ölkəmizin maraqlarını müdafiə edək, ölkəmizi bütün bəlalardan qoruyaq, sabitliyi, inkişafı davam etdirək" strateji xətti qarşıdakı illərdə də Azərbaycanın dayanıqlı inkişafı üçün möhkəm zəmin yaradacaq. Bu gün özündə 750 minə yaxın insanı birləşdirən partiyamızın cənab İlham Əliyevin rəhbərliyi ilə gələcəkdə daha böyük qələbələr qazanacağı şübhəsizdir. Partiyamız Prezident İlham Əliyevin irəli sürdüyü "Müasir, qüdrətli və zəngin Azərbaycan naminə" çağırışı ilə Azərbaycanın daha da inkişaf edəcəyinə inanır və bu yolda özünün töhfələrini verəcəkdir.

**RƏFİQƏ KAMALQIZI**

---

# YAP-ın Laçın rayon təşkilatında videokonfrans keçirilib



**Dünən Yeni Azərbaycan Partiyasının yaradılmasının 28-ci ildönümü ilə əlaqədar partiyanın Laçın rayon təşkilatında videokonfrans keçirilib. Videokonfransa YAP Laçın rayon təşkilatının sədri İlqar İlyasov və YAP Laçın rayon təşkilatının fəalları qoşulub. Videokonfransı Yeni Azərbaycan Partiyası Laçın rayon təşkilatının sədri İlqar İlyasov açaraq Vətən müharibəsində qazanılan şanlı qələbə münasibətilə konfrans iştirakçılarını təbrik edib, şəhidlərimizə Allahdan rəhmət diləyib.**

Rayon təşkilatının sədri qeyd edib ki, Yeni Azərbaycan Partiyası Azərbaycan tarixinin son dərəcə ağır və keşməkeşli günlərində, ölkənin ciddi sınaqlara məruz qaldığı bir dövrdə Azərbaycan ziyalılarının təşəbbüsü və fəal iştirakı ilə yaranıb. Azərbaycanın taleyini düşünən insanlar ölkəni böhrandan çıxara biləcək yeni bir partiya yaratmaq təşəbbüsü ilə çıxış ediblər və bu məqsədlə xalqın sınanmış lideri və müdrik oğlu Heydər Əliyevin şəxsiyyəti ətrafında birləşiblər. 1992-ci ilin noyabrın 21-də Naxçıvanda Heydər Əliyevin sədrliyi ilə konfrans keçirilib. Təsis konfransı Yeni Azərbaycan Partiyasının yaradılması haqqında qərar, partiyanın proqram və nizamnaməsini qəbul edib. Konfransda Heydər Əliyev yekdilliklə partiyanın Sədri seçilib. Beləliklə, müstəqil Azərbaycanın tarixində öz üzərinə böyük tarixi missiya götürən və xalqımızın həyatında mühüm hadisəyə çevrilən Yeni Azərbaycan Partiyası yaranıb.



Videokonfransda digər çıxış edənlər müzəffər Azərbaycan Ordusunun qəhrəmanlığından eləcə də, partiyanın keçdiyi çətin və şərəfli yoldan danışıblar. YAP Laçın rayon təşkilatının sədri İlqar İlyasov videokonfransa yekun vuraraq bildirib ki, bizim hamımızın borcu Ulu Öndərimizin ideyalarına daim sadiq qalmaq, bu ölməz ideaları yaşatmaq və Ümummilli Liderimizin siyasi kursunun ən layiqli davamçısı möhtərəm Prezidentimiz İlham Əliyevin ətrafında daha sıx birləşməklə ölkəmizin daha da qüdrətlənməsi naminə var qüvvəmizi əsirgəməməkdən ibarətdir.

**RƏFİQƏ**

---

# YAP Yasamal rayon təşkilatında "Şəhidlər Ölməz, Vətən Bölünməz" adlı layihənin təqdimatı keçirilib



Azərbaycan Respublikası Səfərbərlik və Xidmətə Çağırış Üzrə Dövlət Xidməti,YAP Yasamal Rayon təşkilatı və Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə İB-nin birgə təşkilatçılığı ilə YAP Yasamal rayon təşkilatında "Şəhidlər Ölməz, Vətən Bölünməz" adlı layihənin təqdimatı keçirilib.

Layihənin təqdimatında çıxış edən YAP Yasamal rayon təşkilatının sədri Tağı Əhmədov tədbir iştirakçılarını böyük qələbə münasibətilə təbrik edib,torpaqlarımızın azadlığı uğrunda döyüşən və şəhid olan igidlərimizin ailə üzvlərinə başsağlığı verib və şəhidlərin daim Azərbaycan xalqının yaddaşında əbədi yaşayacağını vurğulayıb. Daha sonra tədbirdə iştirak edən şəhidlər ailələrinin üzvlərinə, rəssam,Qarabağ müharibəsi veteranı Şəmsəddin Böyükdüzlü tərəfindən çəkilən şəhidlərimizin rəsm əsərləri hədiyyə olunub.

# “Gələcək nəsillər 2020-ci ilin Zəfər tarixini qürurla öyrənəcəklər”

## Yeni Azərbaycan Partiyasının Masallı rayon təşkilatı partiyanın yaranmasının 28-ci ildönümü ilə bağlı onlayn konfrans keçirib

***Dünən Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatı partiyanın yaranmasının 28 illiyi ilə əlaqədar “Yeni Azərbaycan Partiyası Qələbələr partiyasıdır” mövzusunda onlayn konfrans keçirib. İlk öncə Yeni Azərbaycan Partiyasının qurucusu və memarı Ulu Öndər Heydər Əliyevin abidəsi önünə güllər düzülərək, əziz xatirəsi ehtiramla yad edilib. Konfrans iştirakçıları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqa müraciətini izlədikdən sonra konfrans öz işinə başlayıb.***





Onlayn konfransı giriş sözü ilə Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev açaraq, Yeni Azərbaycan Partiyasının qurucusu və memarı Ulu Öndər Heydər Əliyevin və şəhidlərin əziz xatirəsi1 dəqiqəlik sükutla yad edilib. Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev öncə 20 noyabr tarixinin Ağdamın, o cümlədən ölkəmizin tarixinə qızıl hərflərlə yazıldığını bildirib: “Sentyabrın 27-də işğalçı Ermənistanın növbəti hərbi təxribatına cavab olaraq cənab Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuzun apardığı 44 günlük Vətən müharibəsi qələbəmizlə başa çatdı və imzalanan üçtərəfli bəyanata uyğun olaraq işğalçı ölkə əsgərləri noyabrın 20-də tamamilə Ağdamdan çəkildilər. Mən bu qələbə münasibətilə başda cənab Prezidentimiz İlham Əliyev olmaqla Azərbaycan xalqını, o cümlədən masallıları təbrik edirəm”.

S.Əliyev çıxışına davam edərək Yenm Azərbaycan Partiyasının keçdiyi tarixi yoldan və fəaliyyəti barədə ətraflı məlumat verib.

Konfransda Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, Masallı rayon icra hakimiyyətinin başçısı Şahin Məmmədov çıxış edərək bu əlamətdar gün münasibəti ilə konfrans iştirtakçılarını təbrik edərək, Yeni Azərbaycan Partiyasının çətin şəraitdə yaradıldığını diqqətə çatdırıbdır: “Bu, həmin ərəfə idi ki, Azərbaycanda xaos hökm sürürdü, dövlət büdcəsi talan olunmuşdu, ölkədə hər addımbaşı cinayətlər törədilirdi. Müstəqil respublika elan olunsaq da, ancaq bu müstəqilliyi qoruyub-saxlamaq qeyri-mümkün bir hala çevrilmişdi. Azərbaycan xalqının çıxılmaz durumda olmasına baxmayaraq, o vaxt iqtidarda olanlar ancaq öz şəxsi niyyətlərinə, şəxsi arzularına xidmət edirdilər. Cəmiyyət ümumxalq inamına malik olan və ilk növbədə, milli birliyə, vətəndaş həmrəyliyinə əsaslanaraq ölkəni böhrandan xilas etməyə qadir olan yeni siyasi qüvvəyə ehtiyac duyurdu. Bu səbəbdən də Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında yeni siyasi partiya yaratmaq istəyi ilə 1992-ci ilin oktyabrında ziyalılar “SƏS” qəzeti vasitəsilə Ona müraciət ünvanladılar. 21 noyabr 1992-ci ildə Naxçıvanda Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi və Ulu Öndər Heydər Əliyev partiyanın Sədri seçildi”.

Çıxaşını davam etdirən Şahin Məmmədov diqqəti ölkəmizin əldə etdiyi uğurlara qazanılan nailiyyətlərə və qələbələrə çəkərək bildirib ki, Prezident İlham Əliyevin son 17 ildə həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası torpaqlarımızın işğaldan azad olmasının ən başlıca səbəbidir: “Azərbaycan xalqı bundan sonra da öz liderinə böyük etimad göstərəcək, bir yumruq kimi dövlətimizin başçısının ətrafında sıx birləşəcək. Gələcək nəsillər 2020-ci ilin Zəfər tarixini qürurla öyrənəcəklər. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!”.

Ş.Məmmədov, həmçinin, rayonda koronavirus infeksiyasının yayılmasının qarşısının alınması ilə bağlı görülən tədbirlər çərçivəsində vətəndaşlar arasında maarifləndirmə işinin aparılması məqsədi ilə yaradılmış mobil qrupların fəaliyyətini davam etdirildiyini deyib: “Hər birimiz sosial məsuliyyətə əməl etməklə yanaşı digər insanlara da bunu təşviq etməli, insanları sosial məsuliyyətli olmağa çağırmalıyıq. Bu işləri görmək bizim vətəndaş kimi vəzifələrimizdən biridir”.

Konfransda həmçinin Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatının Şura üzvləri Əfrail Fərziyev və Seymur Nuriyev, Heydər Əliyev Mərkəzi ərazi ilk partiya təşkilatının sədri Dilbər İbayeva və başqaları çıxış edərək bildiriblər ki, çox zəngin, siyasi mübarizələrlə dolu şanlı tarixi olan YAP 28 illik fəaliyyəti dövründə müstəqil Azərbaycanın inkişafında son dərəcə mühüm rol oynayıb, dövlətçiliyimizin, dövlət müstəqilliyimizin qarantı olub.

***Rəfiqə HÜSEYNOVA***

# “Böyük Qələbəyə gedən yolda YAP-ın rolu və əhəmiyyəti” mövzusunda videokonfrans keçirilib

YAP Nərimanov rayon Təşkilatı tərəfindən Yeni Azərbaycan Partiyasının yaranmasının 28 illiyi münasibəti ilə “Böyük Qələbəyə gedən yolda Yeni Azərbaycan Partiyasının rolu və əhəmiyyəti” mövzusunda Ərazi İlk Partiya Təşkilatlarının sədrləri ilə videokonfrans formatında görüş keçirilib. SİA xəbər verir ki, görüşü giriş sözü ilə açan YAP Nərimanov rayon Təşkilatının sədri Təmraz Tağıyev ilk öncə Vətən uğrunda gedən müharibədə möhtəşəm QƏLƏBƏ qazanılması və Yeni Azərbaycan Partiyasının yaranmasının 28 ilinin qeyd olunması münasibəti ilə tədbir iştirakçılarını təbrik etmiş və Yeni Azərbaycan Partiyasının yaranma tarixindən, həmin dövrlərdəki xalqı düşünülmüş məhvolmaya sürükləyən siyasi proseslər, özbaşınalıqlar, hazırkı müxalifət liderlərinin öz şəxsi maraqları naminə ölkədə yaratdıqları vətəndaş qırğınları



nəticəsində xalqın xilaskarı - Ulu Öndər Heydər Əliyevə üz tutaraq onu yenidən hakimiyyətə gətirilməsinin tarixi zərurətdən doğduğunu vurğulayıb.

Həmçinin, T.Tağıyev sentyabrın 27-dən etibarən başlayan Müzəffər Ordumuzun əks-hücum əməliyyatları nəticəsində Azərbaycanın hərbi qüdrətini göstərdiyini, yüksək döyüş bacarığını nümayiş etdirdiyini və Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanının rəhbərliyi ilə rəşadətli Ordumuz cəmi 44 gün davam edən Vətən müharibəsi zamanı erməni ordusu haqqında uydurulan illüziyaları alt-üst edərək Böyük Qələbəyə imza atdığını qeyd edib.

Sonra tədbir iştirakçılarından YAP Nərimanov rayon Təşkilatının Qadınlar Şurasının sədri Məhəbbət İbrahimova, Avrasiya Universitetinin prorektoru Şəfaət Avılbəyli, Bakı Humanitar Kollecinin direktor müavini Rasim Rzaxanov, ƏİPT-nın sədrləri Maarif Əhmədov, Ağaəli Hüseynov, Azər Əbilov, Əli Məmmədov, Anar Hacıyev, YAP Nərimanov rayon Gənclər Birliyinin sədri Nərminə Yunusova və sədr müavinləri Vüsal Əliyev və Tamerlan Əkbərov çıxış edərək, müasir Azərbaycanın təməl daşı olan Yeni Azərbaycan Partiyasının yaranması və qısa bir zamanda hakim partiyaya çevrildiyi gündən bu günədək qətt etdiyi şərəfli yoldan, ötən 28 il ərzində qazanılan uğurlardan geniş bəhs edib, xalqın partiyası olan Yeni Azərbaycan Partiyasının Sədri , Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında və qüdrətli ordumuzun igidliyi sayəsində qazanılmış Böyük Qələbəyə gedən yoldan danışıblar. Tədbirdə vurğulanıb ki, xalqın Alternativsiz Lideri İlham Əliyevin idarəçiliyi ilə Azərbaycan dövləti və xalqı bundan sonra da yüksək nailiyyətlərə imza atacaqdır.

***Aysel Məmmədova***

# Qazaxda YAP-ın yaradılmasının 28-ci ildönümü qeyd olunub

Yeni Azərbaycan Partiyası Qazax rayon təşkilatında Partiyanın yaradılmasının 28-ci ildönümü münasibətilə onlayn iclas keçirilib. Onlayn iclası giriş sözü ilə açan YAP Qazax rayon təşkilatının sədri Həmid Pənahov Yeni Azərbaycan Partiyasının yaradılmasının 28-ci ildönümü və Azərbaycanın mənfur Ermənistan üzərində qazanılmış möhtəşəm qələbə münasibətilə təbriklərini çatdırıb. YAP-ın yaranma səbəblərinə və həmin dövrün ictimai-siyasi hadisələrinə nəzər yetirən rayon təşkilatının sədri vurğulayıb ki, Azərbaycan 1990-cı illərin əvvəllərində uçurum qarşısında idi. YAP-ın yaradılmasının bir tarixi zərurət kimi meydana çıxdığını deyərək qeyd edib ki, həmin ərəfədə Azərbaycanda xaos hökm sürürdü. Çətin, ağır bir zamanda yaradılan YAP Ümummilli Lider Heydər Əliyev ideyalarına əsaslanaraq, ölkəmizin ictimai-siyasi həyatında fəal iştirak edib, dövlətçiliyimizin möhkəmlənməsinə və dinamik inkişafına öz töhfələrini verib.

Yeni Azərbaycan Partiyası, iqtidarda olduğu müddətdə, Azərbaycanın siyasi və iqtisadi müstəqilliyi daha da möhkəmlənib və ölkəmizin beynəlxalq aləmdə mövqeyi güclənib. Rayon təşkilatının Qadınlar Şurasının sədri Yeganə Göyüşlü, partiya fəalları Akif Əmirov, Elvira Əfəndiyeva çıxış edərək Ümummilli Lider Heydər Əliyevin Azərbaycan xalqı qarşısında göstərdiyi əvəzsiz xidmətlərdən danışıblar.

***Nəzakət ƏLƏDDİNQIZI***

*Bir ölkənin vətəndaşları, özünü xalq adlandıran bir qaraçı tayfası, ermənilər məğlubiyyətlərini həzm edə bilmirlər. Məğlubiyyətlərini isbatlayan sənədi imzalayan baş nazirinə zəhərini tökmək üçün günlərlə küçələrdən bu toplumun hələ də yığışmaması təsdiq edir ki, öz haylar onlara vurulan növbəti məğlubiyyət damğasının fərqindədirlər.*

# Hayların növbəti məğlubiyyət damğası





Ermənistan Respublikasının narahat olan vətəndaşları baş nazirlərindən tutmuş, ən adi səlahiyyətlilərinə qədər məğlubiyyətləri ilə bağlı suallar ünvanlayırlar. Məğlubiyyətlərini isbatlayan sənədin imzalanmasına qədər aldadılan və bu səbəbdən də o zamana qədər özlərini qalib kimi zənn edən erməni cəmiyyəti indi özünə sığışa bilmir. Ermənistanda isə təlatümlərin hələ bundan sonra nə da aqressiv erməni xisləti vəd olunanı reallaşdıracaq. Sadəcə, hələki Nikol ələ keçməyib, keçən kimi ona əl gəzdiriləcək ermənilər tərəfindən. Çünki, Nikol Paşinyan məğlubiyyət damğasını özünü xalq adlandıran, ən azından bütöv bir toplumun, tayfanın, qaraçı tayfasının alnına vurdu və onları bu damğanı daşımaq məcbiriyyətində qoyanı hansı hala düşürəcəkləri təxmin edilə bilər.



qədər davam edəcəyi və bunun nə ilə, daha doğrusu hansı faciələrlə nəticələnəcəyini, onun miqyasını belə söyləmək çətindir. Çünki, bu işğalçı ölkə vətəndaş müharibəsi astanasındadır. Qarşıdurmalar, xaos, hakim partiyada belə fərqli mövqelərin olması, bir-birinin ardınca istefalar daha geniş miqyaslı faciələrdən xəbər verir.

Bəli, çox deyilirdi bu cahil kütləyə ki, işğalçılıqla, terrorçuluq və separatçılıqla uzağa gedə bilməyəcəklər. Ölkə başçısı, Ali Baş Komandan, Cənab Prezident İlham Əliyev də bu gün xalqa müraciətində xatırlatdı ki, onlara bu işğalçılıq siyasətinin ağır nəticələr vəd etdiyini dəfələrlə deyib. Nəticədə, onların öz suverenliyindən məhrum olacaqları xatırladılıb. Bəli, nəticə göz önündədir və ölkə başçımızın da qeyd etdiyi kimi, Ermənistan artıq bir dövlət olaraq nə suverenlikdən, nə müstəqillikdən danışa bilməz. Bütün məhrumiyyətlərə düçar olan bir ölkənin gələcəyi sual altındadır.

Maraqlıdır, bir zaman gedib Qarabağda şərab içib, sonra da sərxoş vəziyyətdə rəqs edən bir baş nazir işğal etdikləri torpaqlardan məhrum edildiyində niyə, Şuşa, Qarabağ torpaqları onlara lazım idimi sualını verirdi səlahiyyətlilərə? Bəs erməni səlahiyyətliləri, Ermənistan Milli Məclisinin deputatları bu sualın qarşılığında niyə sorumadılar ki, ay Nikol, belə lazımsız idisə, niyə gedib o torpaqlarda yeyib-içib oynaqlayırdın? Hər bir halda, onsuz da küçədən gələn bu əldəqayırma diplomata elə küçələrdən də suallar ünvanlanır onsuz da. Bu suallar da onun sonun vəd edir və ən yaxın zaman-

## Paşinyanın pafosla şişirdiyi şarlar partladı

Müdafiə Nazirliyinin keçmiş müfəttişi, general Movses Akobyan keçirdiyi mətbuat konfransında iki il yarım müddət ərzində bu hökumət, xüsusən də Nikol Paşinyan tərəfindən şişirdilmiş bir şarı partladtı və müharibədə necə və hansı rüsvayçılıqla qarşılaşdıqlarını, hansı rəzalətlə məğlub olaraq çıxdıqlarını bir-bir sadaladı. O, xüsusilə qeyd etdi, ölkəsinin müharibəyə hazırlığı olmayıb və ümumiyyətlə, qarşı tərəfə, Azərbaycan tərəfinə tap gətirmək gücündə olmayıb. Akobyan xüsusilə, ölkəsində müharibənin gedişi ilə əlaqədar erməni cəmiyyətinə dezinformasiyalar verilməsinə də toxunub. Diqqətə çatdırıb ki, müharibənin 44 günü boyunca dezinformasiyaların verilməsi, yalanların yayılması ölkəsini nəinki müharibədə məğlub etdi, ümumilikdə, müharibədən sonrakı durumda da erməni cəmiyyətini dağıtdı. Çünki, yalan informasiyalarla beyinləri doldurulan, aldadılan ermənilər bu gün məğlubiyyətlərini anlaya bilmirlər və küçələrdəki aqressiyaları da həmçinin bununla bağlıdır ki, qalibiyyət xəbərləri verən bir hökumətin, bir hakimiyyətin, onun baş nazirinin birdən gecə yarısı məğlubiyyətlərini isbatlayan sənədə imza atması necə olur.

Müdafiə Nazirliyinin keçmiş müfəttişi diqqətə çatdırıb ki, hərbidə yalan həqiqətin 30%-dən çox olmamalıdır, deyə bir meyar var. Vurğulayıb ki, amma bu hakimiyyət 30% yox, 100 faiz yalan danışıb. Yəni, erməni generalı nəzərə çatdırıb ki, bu Ermənistan hökuməti, onun baş naziri tamamilə yalan danışıb və suallar da bu səbəbdən ortaya çıxır. Bu eyni zamanda o deməkdir ki, təkcə müharibə dönəmində deyil, ondan əvvəl də Nikol yalanlar danışıb, şişirdilmiş, pafoslu sözlərlə auditoriyanı aldadıb. Həmçinin, bu yalanların hal-hazırda davam etdiyinə də bu dəlalət edir. Əbəs yerə deyil ki, Momses Akobyan barədə tədbir görməyi planlaşdırır Ermənistan hakimiyyəti və şübhə yoxdur ki, bu tədbirlərin plan və tapşırıqları Nikol Paşinyan tərəfindən verilib.

Akobyan hərbçi mütəxəssislərin əvəzinə, baş nazirin arvadı Anna Akobyanın hərbi sığınacaqlarda qalması, hərbi planlar qurması, hərbi əməliyyatlara rəhbərlik etməsinə də toxunub və qınayıb. Bunun qəbuledilməz olduğunu bildirib. Bütün bunların gülünc və utancverici olduğuna diqqət çəkib Movses Akobyan. Xüsusilə, vurğulayıb ki, ordu və ölkənin hərbisi istirahət, eyş-işrət yeri deyil və Ermənistanda bu belə olub. Nəzərə çatdırıb ki, Ermənistan ordusundan fərqli olaraq, ordunun qazanması, əsgərlərin ölməməsi üçün istirahət etmək yox, təlimlərdə tər tökmək, əziyyətə alışmaq tələb olunur.

Heç şübhəsiz ki, sorğu-sual üçün dəvət olunan Akobyan sərbəst buraxılmayacaq və dediklərinə görə Paşinyan hakimiyyəti tərəfindən hədəf seçilib. Maraqlıdır, Ermənistanın başbiləniləri, səlahiyyətliləri, bu ölkənin hakimiyyəti, vətəndaşları, elə Nikol özü də buna dövlət deyirmi? Özü də utanmadan demokratik dövlət deyirlər və bu özü də simasızlıqlarını isbatlayır. Hər hansı bir normal ölkədə, belə bir mətbuat konfransından sonra hüquq-mühafizə orqanlarının əməkdaşları bir iş açmırlar. Təbii ki, onu da susdurmaq üçün Nikol Paşinyan öz repressiya mexanizmini işə salacaq, amma, nə bu repressiyalar, nə də bəhanələri Ermənistanı məğlubiyyət damğasından azad edən deyil, nə də bunun bir faydası olan deyil bu erməni cəmiyyətinə.

## İkiqat cəhənnəm

Gündəlik "Hraparak" qəzetinin baş redaktoru Armine Ohanyan yazır ki, başqa nə aşkarlanmalı idi ki, erməni baş nazirinin kimliyi üzə çıxsın? O, qeyd edir ki, qorxu faktoru hələ də erməni cəmiyyətini təqib edir. Həmçinin xatırladır ki, məruz qaldıqları məğlubiyyəti təsdiqləyən alçaldıcı müqavilənin necə imzalandığı barədə açıqlama da verilməyib erməni cəmiyyətinə və bundan sonra da açıqlama verəcək kimi görünmür.

Baş redaktor mövcud hakimiyyəti xəbərdar edib ki, insanlar danışmağa və gerçəkliyi tələb etməyə davam edəcəklər. Hətta nəzərə çatdırıb ki, dünən keçmiş hərbi müfəttiş Movses Akobyan ilk addımı da atıb və geniş ictimaiyyətə məlum olmayan detalları dürüst danışıb.

Qeyd edək ki, Movses Akobyanın dediyi kimi, Ermənistan tərəfi müharibə ilə bağlı tam yalan danışdığı zaman Armine Ohanyanın baş redaktoru olduğu mətbuat səhifəsi Arsrun Ovhannisyanın yalanlarından yazdığı zaman Ermənistan hakimiyyəti onlara "daş atıb". Bu gün baş redaktor onlara verilən yalan məlumatları yayımladığına görə erməni cəmiyyətindən üzr də istəyib.

Baş redaktorun da qeyd etdiyi kimi, görnür erməni cəmiyyəti ikiqat cəhənnəm yaşamalı olub və bunu onlara mövcud Ermənistan hakimiyyəti, şəxsən Nikol paşinyan komandası yaşadıb ki, bunun da hesabı indi onlardan sorulur. Birinci cəhənnəmi erməni cəmiyyətinə müharibə meydanında yaşadılıb. Bu zaman, yəni müharibə zamanı işğalçılıq, terrorçuluq, separatçılıq siyasəti yürüdən, faşizmi təbliğ edən, xəstə təxəyyülə, ideologiyaya xidmət edənlər erməni əsgərlərinə cəhənnəm yaşadıblar öz cürük əqidələri sayəsində. Çünki, özgə torpağına göz dikən, işğalçılıq niyətində olanların qanunsuz şəkildə erməni əsilliləri, Ermənistan vətəndaşlarını başqalarının torpaqlarında vuruşmağa göndərənlər onları cəhənnəm əzabı ilə üz-üzə qoyublar. Rəşadətli Azərbaycan Ordusu torpaqlarına göz dikənin payını layiqincə vermək iqtidarındadır və buna görə haqq sahibidir. Amma haqq sahibi olmayan həmin özgə torpaqlarına öz vətəndaşlarını göndərənlərdir ki, bu mənada da onlara cəhənnəm əzabını vermiş oldular. Onsuz da od-alov içində qovrulan erməni əsgərləri elə cəhənnəm əzabını çəkərək məğlubiyyətə düçar oldular və unutmaq lazım deyil ki, bu onların ilk cəhənnəmi idi. Çünki, ikinci bir cəhənnəm onları müharibədən sonra gözləyirdi və Ermənistanın baş nazirinin cəhənnəmi indi işğalçı ölkənin küçələrini bürüyüb.

Təsəvvür edəndə ki, erməni əsgər anaları övladlarını məğlubiyyət fonunda itiriblər adamın tükləri biz-biz olur. Düşünəndə ki, onlar vətənləri uğrunda deyil, özgə torpaqlarında, özü də kimlərinsə siyasətinə qurban veriliblər meydanlardakı kütləni qınamaq da olmur. İndi erməni cəmiyyəti sual etməkdə haqlıdır ki, belə məğlubiyyətə imza atan Ermənistan hakimiyyəti niyə onların balalarını qırğına verirdi?

Bir sözlə, Ermənistan bu haqsız mübarizəsində, bu işğalçılıq siyasətində ikiqat cəhənnəm yaşamaq məcburiyyətindədir. Bunun biri cəbhədə, digəri isə ölkənin daxili həyatında reallaşdı. Çox güman ki, bu ilahi ədalətin təcəllasıdır. Çünki, rəbbimiz ədalətsizliyə cavab veriləcəyinə əmin edir və cəhənnəm əzabı da məhz günahların cavabı olaraq nəzərdə tutulur. Amma, nəzərə alsaq ki, bu gün erməni cəmiyyəti, onun hakimiyyəti səhvlər etməkdə davam edir, ən azından vətəndaş müharibəsinə, digər müharibələrə can atır, ola bilsin Ermənistan hələ cəhənnəmin üçüncü, dördüncü qatını da görməli oldu.

***İnam Hacıyev***

# Qarabağdakı qədim Alban məbədlərimizə sahib çıxmalıyıq



**Erməni işğalından azad olunan qədim xristian kilsələri Alban Apostol Kilsəsinə verilməli- tarixi ədalət bərpa olunmalıdır**

**I YAZI**

Tarix elminə məlum olduğu kimi, Qarabağ bölgəsi bizim eradan əvvəl IV əsrdən bizim eranin VIII əsrinədək Qafqaz Albaniyasının tərkib hissəsi olub. Albaniyada erkən orta əsrdə (IV əsrdə) xristianlıq dini qəbul edildikdən sonra Azərbaycanın tarixi torpaqları olan Qarabağ ərazisində IV-VII əsrlər tikinti mədəniyyətini səciyyələndirən xristian arxitekturası tipində, memarlıq üslubunda tikililər- alban xristian dini abidələri yaradılıb. Sonralar Yaxın Şərqdən bu ərazilərə köçmüş qriqoriyan erməni tayfaları bölgədə islamın yayılması kimi tarixi fürsətdən istifadə edərək əraizdəki alban xristian məbədlərini ələ keçirməyə çalışıb və sonda buna nail olub.

**Albaniyada etnik qruplar, onların dili və mədəniyyəti**

Albaniya müasir Azərbaycan, hazırkı Ermənistan və Gürcüstanın bir hissəsi, həmçinin Dağıstan bölgəsinin cənub ərazilərində mövcud olmuş tarixi dövlətdir. Eramızdan əvvəl təqribən IV-III əsrlərdə formalaşıb, eramızın VIII əsrində Ərəb xilafəti tərəfindən işğal edilib. Paytaxtı əvvəlcə Qəbələ, sonra isə Bərdə şəhərləri olub. Eramızın IV əsrində xristian dinini rəsmi dövlət dini elan edən Alban dövləti mövcudluğunun sonuna qədər bu və ya digər dərəcədə xristian ideologiyasının təsir dairəsində olub.

Görkəmli qafqazşünas tarixçi Yevgeni Krupnov yazırdı: "Albaniya tarixinin öyrənilməsi işində heç bir məhdudiyyət və məcburiyyət olmamalıdır. Albaniya tarixini müxtəlif ölkələrin tarixçiləri öyrənirlər. Lakin bir şey də məlumdur: Qafqaz Albaniyasının tarixi və taleyi ilə hamıdan çox azərbaycanlılar məşğul olmalıdırlar. Bu sahədə onlar dünya elmi qarşısında məsuliyyət daşıyırlar, dünya elminə borcludurlar".

Qaynaqlarda Albaniyada yaşayan xalq və tayfalar sırasında utilər, qarqarlar, sovdelər, kaspilər, maqlar, sisaklar, mardlar, amardlar, ariaklar, anariaklar, amazonkalar, qellər və leqlərin adları çəkilir. Bu tayfaların ən qədimləri Qafqaz və türk dillərində danışan avtoxton etnoslar oliblar. Eramızın ilk əsrlərindən başlayaraq Sasani şahlarının göstərişi ilə Albaniyaya bir sıra irandilli tayfalar köçürülmüşdür, III-IV əsrlərdən başlayaraq isə şimaldan, Dərbənd keçidindən yeni türk tayfalarının, o cümlədən hunların, subarların, xəzərlərin, barsillərin və s. Qafqaz Albaniyasına axını başlamışdır. Ərəblərin gəlişinə qədər Albaniya əhalisi 3 hissədən- qafqazdilli, türkdilli və irandilli əhalidən ibarət idi.

Mütəxəssislər qeyd edirlər ki, "Alban" adını türkdilli tayfalarla bağlamaq daha uyğun variantdır. Çünki hazırda alban adlı türkdilli azsaylı xalq var və hazırda Qazaxıstanda yaşayırlar. Son dövrlərdə aparılan sanballı elmi tədqiqatlar nəticəsində Qafqaz albanlarının türk mənşəli və türkdilli tayfa olması birmənalı şəkildə sübut edilib.

Qarabağ ərazisində ayrı-ayrı dövrlərdə müxtəlif dinlər biri digərini əvəz etmişsə və müxtəlif xalqalr köç etmişsə də, öz tarixi-etnik torpağına bağlı olan yerli xalq adət-ənənəsini, mədəniyyətini, milli xüsusiyyətini qoruyub saxlayıb. Bu regionun aborigen əhalisi gəlmə ermənilərdən fərqli olaraq, mənşə, dil və mədəniyyət etibarı ilə min illərlə Böyük Qafqaz dağları ilə Araz çayı arasında yaşamış türk mənşəli və Qafqaz dil qrupuna mənsub olan etnik qruplardan ibarət olub.

Albaniyada xristianlığın müsəlmanlıqla əvəz olunduğu zaman Qarabağın dağlıq ərazisində yaşayan və xristianlıq dini ideologiyasına etiqad etməkdə davam edən avtoxton albanların xristian olmasından istifadə edərək, oraya XIX əsrdən etibarən çoxlu erməni ailəsi köçürülüb. Onlar yerli xristian albanları qriqoryanlaşdıraraq, assimilyasiya etmiş, hayklar adlandırmış, ərazini isə "hayk ölkəsinin bir hissəsi" kimi qələmə vermişlər. Qafqaz Albaniyasının memarlıq abidələrini tədqiq etmiş alimlər bu abidələrin bir çox xarakterik xüsusiyyətlərinə və memarlıq planlaşdırma üslublarına görə erməni dini memarlıq abidələrindən fərqləndiyini bildirib. Həmin abidələr bütün tarixi sübutlara görə, Azərbaycan xalqının mədəni irsinə aiddir.

**Albaniyada xristianlıq dini necə yayıldı və ermənilər bundan necə istifadə etdi?**

Qafqaz Albaniyasında xristianlıq eramızın 54-57-ci illərində apostol Müqəddəs Yeliseyin təbliğ fəaliyyətindən sonra yayılmağa başlayıb. Bu səbəbdən Alban kilsəsi apostol kilsəsi adlandırılır. Qafqazda, eləcə də bütün xristian dünyasında olan qədim xristian kilsələrindən biri də alban kilsəsidir.

Albaniya, xristian icmalarının IV əsrdən xeyli əvvəl, xristianlıq dövlət dini olmamış yarandığı ölkələr sırasındadır. Alban ənənəsinə görə, eramızın ilk əsrlərinin başlanğıcında Yerusəlimdən, Suriyadan ilk xristian missionerləri, həvariləri (apostolları) və həvarilərin şagirdləri Albaniyaya gəlmiş, ilk xristian icmaları yaranmışdı. Xristianlığın Albaniyaya nüfuz etməsi, burada erkən xristian icmasının yaranması, həm həvari Müqəddəs Varfolomeyin, həm də həvari Müqəddəs Faddeyin adları ilə bağlıdır.

VIII əsrdən etibarən Azərbaycanın Şimal hissəsi ərəblərin və İslamın təsir dairəsinə düşdü. Lakin Albaniya əhalisinin xeyli hissəsi hakim sülalənin nümayəndələri Mihranilərlə birlikdə dövlət dini elan edilmiş xristianlığa etiqad edirdilər.

Alban kilsəsinin təqib olunmasında, onun sərbəstlik və müstəqillik hüquqlunun pozulmasında Erməni Qriqorian kilsəsi xüsusi rol oynayırdı. Alban kilsəsini öz nüfuzuna tabe etmək istəyən erməni katolikosları məqsədlərinə çatmaq üçün, Sasanilər dövründə olduğu kimi, ərəb hökmranlığı dövründə də Xilafətin hərbi qüvvələrinin köməyinə əl atırdılar.

Cənubi Qafqazda özlərinə arxa axtaran Əməvilər ermənilər və albanlar arasındakı təfriqəçilikdən bacarıqla istifadə edərək, alban kilsəsinin erməni kilsəsinə tabe olunması üçün şərait yaradırdılar. Erməni katolikosu İlya xəlifə Əbd ül-Malikə məktubunda qeyd olunurdu ki, erməni kilsəsi Alban ruhanilərini tutduqları mövqelərdən sıxışdırıb çıxarmış və ölkədə ərəblərin əlləri çatmayan dağlıq yerlərdə yaşayan albanları möhkəm qriqoryanlaşdırmağa başlamışdı. Erməni ruhaniləri Arran kilsəsinin nüfuzunu yerli əhali arasında tədricən heçə çıxarmış və ərəb hakimlərinin əli ilə albanların bütün ədəbi abidələrini dağıdıb Alban mədəniyyətini, heç olmazsa, azacıq xatırlada biləcək hər şeyi məhv etmişlər. Bütün bu işlər, əvvəlcə Xilafətin köməyi ilə, sonralar isə digər istilaçıların icazəsi və köməyi ilə görülmüşdür. Qriqoryan kilsə xadimləri Arran ədəbi abidələrini məhv edərkən, əvvəlcə bu abidələri qrabara çevirirdilər.

İ.P.Petruşevski göstərir ki, erməni kilsəsi Albaniyada "ölkəni erməniləşdirmək aləti olmuşdur. Onun bu rolu VIII əsrin başlanğıcından etibarən xüsusilə nəzərə çarpır, yəni o zamandan sonrakı erməni monofizit katolikosu Yegi xalkedonçuluq edən Alban katolikosu Nersesi (Bakuru) ərəb xəlifəsinin köməyi ilə devirmişdi və Albaniyada ruhanilər və knyazların bir hissəsinin, Alban kilsəsinin erməni kilsəsindən müstəqilliyini qorumaq cəhdini əks etdirən xalkedonçuluq (pravoslav, yunanpərəst, gürcüpərəst) hərəkatı erməniрərəst monofizitlər tərəfindən yatırılmışdır".

**Qarabağdakı alban kilsə və monastrları Alban Apostol Kilsəsinə qaytarılmalıdır**

Albaniya ərazisində yaşayan yerli tayfalar IV əsrdə xristianlığı qəbul etmişdi, sonralar ərazidə islam dini yayılanda onların bir hissəsi xristianlıqda qaldı. Lakin Qafqazda köklü tarixləri olmayan ermənilər bu ərazilərə köçməyə başladıqdan sonra burada süni şəkildə öz tarixlərinin izlərini yaratmaq məqsədi ilə Alban abidələrini mənimsəmək, milli mənsubiyyətini dəyişmək yolunu tutublar. Ən çox mənimsənilməyə məruz qalan abidələr isə xristianlıq dövrü abidələridir. Bu da ondan irəli gəlir ki, bu tipli abidələr üzərindəki xristian dininin rəmz və simvolları, eləcə də daş və divar rəsmləri içərisindəki buna bənzər rəsm nümunələrini əsas götürərək bunları erməniləşdirməyə çalışırlar. Azərbaycanın xristianlıq dövrü abidələrinin ermənilər tərəfindən mənimsənilməsi faktlarını gürcü tarixçisi A. Çavçavadze "Ermənilər və qan ağlayan daşlar" əsərində dolğun şəkildə əks etdirmişdi. O yazır: "Ermənilər aborigen albanları süni şəkildə qriqoryanlaşdıraraq vaxtilə sığındıqları Azərbaycan torpaqlarını "Hay ölkəsi"- Şərqi Ermənistan adlandırırlar".

Lakin tədqiqatçılar göstərir ki, hətta xristianlıq dövrü abidələri belə nə erməni dininə (qriqoryanlıq), nə də erməni mədəniyyətinə və mənşəyinə uyğun gəlir. Belə ki, Azərbaycan ərazilərindəki Alban-xristian abidələrinin tarixi-arxeoloji və memarlıq baxımından tədqiqi xristianlığın bir çox xüsusiyyətlərini aydınlaşdırmağa kömək edir.

Xristianlıq dövrü alban abidələrinin ermənilər tərəfindən mənimsənilməsinin bir səbəbi də, islamın yayıldığı ərazilərdə yerli ərəb hakimlərinin qədim alban, hətta zərdüşti məbədlərinin xristian azlıqlara, o cümlədən ermənilərə verilməsidir.

Daha bir səbəb isə 1836-cı ildə Alban Apostol kilsəsinin ləğv edilərək Erməni Qriqoryan kilsəsinə tabe edilməsidir. Rusiya çarlarının Qafqazdakı siyasəti, ermənilərə verdikləri xüsusi əhəmiyyət nəticəsində Alban kilsələrinin mərkəzi əsassız olaraq ermənilərin qriqoryan kilsəsinə verildi. Bununla da Alban dini rəhbərliyi Eçmiedzinə köçürüldü. Bütün bu çətinliklər və ağır mübarizə şəraitinə rəğmən Alban Həvari Kilsəsi öz varlığını 1836-cı ilə kimi qoruya bilmişdir. Lakin 1836-cı ildə Rusiya tərəfindən erməni Qriqorian kilsəsinin tabeçiliyinə verilərək fəaliyyəti tam dayandırılmışdır. Bununla belə, 2003 -cü ildə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində Alban Həvari Kilsəsi yenidən qeydiyyata alınaraq fəaliyyətini bərpa etmişdir. Artıq Qarabağda azad olunmuş alban kilsələrini bu Kilsənin tabeçiliyinə verilməsi vacibdir.

*Davamı olacaq*

*Elçin Bayramlı*

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

*Yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# SƏS

Son səhifə

21 noyabr

## Orxan Səfərov Avropa çempionudur!



Çexiyanın paytaxtı Praqada Avropa çempionatı start götürüb. Qol.az xəbər verir ki, yarışın ilk günündə Azərbaycan millisinin 6 üzvü tatami üzərinə çıxıb.

66 kq çəkidə mübarizə aparan Orxan Səfərov 1/16 finalda Manuel Lombardo (İtaliya), 1/8 finalda Matej Polyak (Slovakiya) üzərində qələbə qazanıb. Yarımfinala vəsiqə uğrunda qarşılaşmada cüdoçumuz almaniyalı Sebastyan Seydli məğlub edib. Finalın bir addımlığında serbiyalı Strahinya Bunçiçə qalib gələn idmançımız finalda İsrail cüdoçusu Tal Flikeri üstələyərək qızıl medala sahib olub. Qələbəni əsgər salamı ilə qeyd edən 29 yaşlı idmançı çempionluğunu Azərbaycan Ordusu ilə bölüşüb.

## Mesut Ozil: "Avropada islamafobiya böyüyür"



"Arsenal"ın yarımmüdafiəçisi Mesut Özil Avropada və dünyada İslam dini əleyhinə düşüncələrin böyüməsindən narahatlığını bildirib. Belə ki, öz Tvitter səhifəsində bu barədə yazan türk əsilli futbolçu bu məsələdə medianı günahlandırıb: "Təəssüf ki, Avropada və dünyanın digər yerlərində islamofobiya və antiislamizm artmaqdadır. Bunda medianın böyük rolu var.

Bununla bağı şəxsi cavabım odur ki, məsələni şiddətləndirməmək, əksinə xeyirxahlıqla o düşüncədə olanları tərksilah edib susdurmalıyıq".

## Xəbərdarlıq: Şəkərin normadan artıq qəbulu sağlamlığımız üçün təhlükəlidir!

Qış-yaz aylarında immun sistemi zəifləyir, orqanizmimiz infeksiyalara qarşı müqavimət göstərməkdə çətinlik çəkir. Bunun qarşısını almaq üçün düzgün, balanslı şəkildə qidalanmaq lazımdır.

Qida Təhlükəsizliyi Agentliyinin İnformasiya təminatı və innovativ həllər şöbəsinin maarifləndirici materialında qeyd olunur ki, həddindən artıq şəkər istehlakı da immun sistemimizi zəiflədən faktorlardandır. Şəkərli içkilər, tortlar, kekslər, şirin unlu qidalar orqanizm üçün müvəqqəti enerjivermə qabiliyyətinə malikdir. Tez-tez həmin məhsullarla qidalananlarda C vitaminin miqdarı azalır. Nəticədə də leykositlər bədənə daxil olan bakteriya və virusların sadəcə 50 faizini təsirsiz hala gətirə bilir.



Mütəxəssislər orta yaşlı şəxsin gündəlik 30 qramadək şəkər istehlakını tövsiyə edirlər. Şəkərin normadan artıq qəbulu sağlamlığımız üçün təhlükəlidir. Bir çox xəstəliklərin meydana gəlməsinə, xüsusilə artıq çəki və diabetin yaranmasına səbəb olur. Teztez aclıq, səbəbsiz davamlı yorğunluq, yaraların gec sağalması, diş çürüməsi, ağız boşluğunun quruması, sidik yollarının infeksiyası, ağızda və dildə ağ ərp formalaşması, quru dəri, konsentrasiyada çətinlik artıq şəkər istehlakı nəticəsində formalaşan fəsadlardandır. Həmçinin tərkibində həddindən çox şəkər olan məhsulların istehlakı gündəlik kalori qəbulunu artırır və bu da piylənməyə aparıb çıxarır. Piylənmə isə ürək, yüksək qan təzyiqi və iltihab kimi xəstəliklərin risk faktorlarından sayılır.

Şəkər istehlakını məhdudlaşdırmaq üçün qablaşdırılan məhsulların tərkibini diqqətlə oxumaq lazımdır. Məhsullarda fruktoza, laktoza, saxaroza, maltoza, qlükoza və dekstroza kimi elementlərin miqdarı nəzərə alınmalıdır. Şəkər, şokolad, şərbət və şirniyyatların əvəzinə meyvələrə, yəni təbii şəkər qaynağına üstünlük verilməlidir.

İnsan orqanizminə lazım olan enerji gündəlik qəbul edilən qida məhsulları ilə ödənilir. Təbii ki, sağlam və keyfiyyətli qida orqanizmimiz üçün enerji mənbəyi ola bilər. Meyvə və tərəvəzlərə üstünlük verməklə immun sistemimizi gücləndirə, orqanizmimizin infeksiya törədicilərinə qarşı dözümlülük və müdafiəsini artıra bilərik.

## AFFA işğaldan azad olunmuş rayonlarda meydançalar salacaq



### AFFA işğaldan azad olunmuş rayonlarda meydançalar salacaq

AFFA Azərbaycanın işğaldan azad olunmuş torpaqlarında süni örtüklü meydançaların inşası ilə bağlı plan hazırlayır. Milli assosiasiyanın rəsmi feysbuk səhifəsində yer alan məlumatda deyilir ki, həmin meydançalar yaşayış məntəqələrində məskunlaşma prosesinə uyğun tikiləcək sakinlərin ixtiyarına veriləcək.

Qeyd edək ki, ilk belə meydança 2018-ci ildə Cəbrayılın Cocuq Mərcanlı kəndində AFFA və UEFA-nın Uşaq Fondu UEFA Foundation for Children tərəfindən inşa edilib.

## Başsağlığı

YAP Bərdə rayon təşkilatının kollektivi YAP Bərdə rayon təşkilatı aparatının Baş məsləhətçisi İbişov Cavid Telman oğluna atası İbişov Telman Mövsüm oğlunun və anası İbişova Zərifə Qaçay qızının vaxtsız ölümündən kədərləndiyini bildirir və dərin hüzünlə baş sağlığı verir.

**Allah rəhmət eləsin!**

## Bütün zamanların ən məşhur mahnıları hansılardır?



"Shazam" musiqi tanıma xidməti bütün zamanların ən məşhur mahnılarını sıralayıb. Bu barədə "RİA Novosti" xəbər yayıb. Bildirilir ki, siyahının ilk yerində avstraliyalı müğənni "Tones and I"ın "Dance Monkey" kompozisiyası qərarlaşıb. Xidmət istifadəçiləri melodiyanı 33 milyon dəfədən çox tanımağa çalışıblar.

İkinci yerə alman ifaçı Robin Şultz və Fransanın "Lilly Wood & Prickin" qrupunun "Prayer in C" mahnısı, üçüncü yerə britaniyalı ifaçı "Passenger"in "Let her go" mahnısı çıxıb. İsveç "DJ Avicii"dən "Wake me up" və "Major Lazer" musiqi qrupundan "Lean on" bəstəsi siyahıda üçüncü yeri tutub.

## Mobil telefonlar oğurlayan şəxslər saxlanılıb



Mobil telefonlar oğurlamaqda şübhəli bilinən şəxslər saxlanılıb. Daxili İşlər Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, Nəsimi Rayon Polis İdarəsinin 20-ci polis bölmə əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində noyabrın 14-də rayon ərazisindəki telefon satışı mağazalarının birindən 34.519 manat dəyərində mobil telefonlar oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakinləri O.Mehdiyev və F.Kərimli saxlanılıb.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**